**Müəlliflər:** **Səlimzadə Mehdi İldırım oğlu**

**f.d. Yusifov Səbuhi Cəbrayıl oğlu**

**h.e.f.d. Xəlilov Qədir Rövşən oğlu**

**Rəyçi:** **Fərəcov Zöhrab Əli oğlu**

# Bələdiyyə büdcəsinin planlaşdırılması:

# şəffaflıq və hesabatlılıq

Metodik vəsaitdə yerli büdcə məsələləri, büdcənin gəlir və xərcləri, büdcə prossesi və bu prossesə vətəndaş cəmiyyətinin cəlb olunması, büdcənin tərtibi və icrası nümunə, misal və cədvəllərdən istifadə olunmaqla izah edilmişdir. Bununla yanaşı bələdyyələrdə şəffaf büdcə siyasəti, onun əhəmiyyəti, bələdiyyə büdcəsinə nəzarət, büdcənin auditi, monitorinqi və büdcənin təhlili kimi mövzular da işıqlandırılmış və bu istiqamətdə müəyyən metodiki tövsiyyələr verilmişdir.

**Bakı 2015**

**Ön söz ........................................................................................................................... 2**

**Bələdiyyə büdcəsi**

Yerli büdcə .......................................................................................................................... 3

Yerli büdcənin gəlirləri və xərcləri ..................................................................................... 4

Büdcələrarası və dövlət hakimiyyəti orqanları ilə münasibətlər ...................................................... 25

**Bələdiyyə Büdcəsinin planlaşdırılması**

Yerli büdcənin planlaşdırılması və tərtibi ........................................................................... 30

Yeri büdcənin müzakirəsi və təsdiqi .................................................................................. 37

Yerli büdcənin icrası və büdcənin tarazlaşdırılması ......................................................... 39

**Bələdiyyə büdcəsində şəffaflığın təmini**

Şəffaf büdcə siyasətinin əhəmiyyəti..................................................................................40

Bələdiyyə büdcəsinə nəzarət, audit və monitorinq və büdcənin təhlili .............................................44

Yerli büdcədə şəffaflığın təmini üsullar ...............................................................................47

**Ədəbiyyat .....................................................................................................................52**

## Ön söz

Azərbaycan Respublikasında bələdiyyələr 1999 – cu ildə yaradılıb və hazırda ölkə üzrə 1607 bələdiyyə fəaliyyət göstərir. Bələdiyyələrin statusunu, maliyyə-iqtisadi əsaslarını, dövlət orqanları ilə münasibətlərini, onlar üzərində inzibati nəzarəti və s. məsələləri tənzimləyən bir çox qanunvericilik aktları qəbul olunmuşdur. Heç şübhəsiz bələdiyyələrinin maliyyə - iqitisadi əsaslarından biri kimi bələdiyyə büdcələrinin formalaşması, tərtibi, icrası və təhlili məsələləri çox əhəmiyyət kəsb edən, eyni zamanda bələdiyyələrin ərazisində yaşayan vətəndaşların sosial-iqtisadi ehtiyaclarının və ərazinin bir sıra problem və məsələlərinin həlli baxımından mühüm əhəmiyyət daşıyır.

Yerli büdcə, yerli büdcənin gəlirləri və xərcləri, büdcələrarası və dövlət hakimiyyəti orqanları ilə münasibətlər, yerli büdcənin planlaşdırılması və tərtibi, yerli büdcənin müzakirəsi və təsdiqi, yerli büdcənin icrası və büdcənin tarazlaşdırılması kimi məsələlərin həm nəzəri, həm də praktiki cəhətdən öyrənilməsi bələdiyyələrin fəaliyyətində şəffaflığın artırılması, vətəndaşların idarəetmədə işitirakının təmin edilməsi, eləcə də resursların səmərəli istifadə olunması üçün vacibdir. Qeyd etmək lazımdır ki, yuxarıda sadalanan məsələlər Azərbaycan Respublikasının qanunvericiliyində kifayət qədər öz əksini tapmışdır. Bələdiyyə maliyyəsinin əsasları haqqında Azərbaycan Respublikasının Qanunu, Yerli vergi və ödənişlər haqqında Azərbaycan Respublikasının Qanunu, Büdcə sistemi haqqında Azərbaycan Respublikasının Qanunu və Azərbaycan Respublikasının  Vergi Məcəlləsində bəhs olunan məsələlər əhatə olunmuşdur.

Bu vəsaitdə qeyd olunan yerli büdcə məsələləri, büdcənin gəlir və xərcləri, büdcə prossesi və bu prossesə vətəndaş cəmiyyətinin cəlb olunması, büdcənin tərtibi və icrası  nümunə, misal və cədvəllərdən istifadə olunmaqla izah edilmişdir. Bununla yanaşı bələdyyələrdə şəffaf büdcə siyasəti, onun əhəmiyyəti, bələdiyyə büdcəsinə nəzarət, büdcənin auditi, monitorinqi və büdcənin təhlili kimi mövzular da işıqlandırılmış və bu istiqamətdə  müəyyən metodiki tövsiyyələr verilmişdir.

Kitabın bələdiyyə qulluqçuları, bələdiyyələrin büdcə komissiyalarının üzvləri və komissiyada çalışanlar, yerli büdcənin tərtibi və təhlili ilə məşğul olanlar, eləcə də yerli maliyyə problemləri sahəsində  tədqiqat aparan şəxslər üçün faydalı olacağına ümid edirik.

Mehdi Səlimzadə
Ədliyyə Nazirliyi
Bələdiyyələrlə iş mərkəzinin rəisi

# Bələdiyyə büdcəsi

## 1. Yerli büdcə

Büdcə – Azərbaycan Respublikasının müvafiq dövlət hakimiyyəti və yerli özünüidarəetmə orqanları vasitəsi ilə dövlətə və bələdiyyələrə məxsus vəzifə və funksiyaları yerinə yetrimək üçün lazım olan pul vəsaitinin yığılması və istifadə olunması üçün əsas maliyyə sənədidir. .

Azərbaycan Respublikasında büdcə sistemi Azərbaycan Respublikasının dövlət büdcəsi, Naxçıvan Muxtar Respublikasının büdcəsi və yerli büdcələrdən ibarətdir. Yerli büdcələr respublika tabeçiliyində olan şəhərlərin büdcələrindən, rayonların büdcələrindən və bələdiyyələrin büdcələrindən ibarətdir. Büdcə sistemi bu sistemə daxil olan büdcələrin vahid prinsiplər əsasında fəaliyyətinə və onların müstəqilliyinə əsaslanır.

Azərbaycan Respublikası dövlət büdcəsinin məqsədi ölkənin iqtisadi, sosial və digər strateji proqramlarının və problemlərinin həlli, dövlətin funksiyalarını həyata keçirilməsi üçün qanunvericiliklə müəyyən edilmiş qaydada maliyyə vəsaitinin toplanmasını və istifadəsini təmin etməkdir.

Yerli büdcə layihəsi bələdiyyənin vergilər və digər mənbələr hesabına gəlirləri formalaşdırmaq, habelə prioritet sahələr üzrə xərcləmələr aparmaq planlarını təqdim edən sənəddir. Bu sənəd növbəti ilin büdcəsi üzrə xərclərin iqtisadi, funksional, inzibati və proqram təsnifatını, eyni zamanda gəlirlərin təsnifatını əhatə edir.

Yerli büdcə bələdiyyələrin statusuna uyğun olaraq özünüidarəetmə prinsiplərini reallaşdırmaq, Azərbaycan Respublikasının Konstitusiyası və qanunları ilə müəyyənləşdirilmiş bələdiyyə səlahiyyətlərini həyata keçirmək üçün formalaşan və istifadə olunan maliyyə vəsaitidir. Ölkəmizdə Yerli büdcə bələdiyyə büdcəsi olub dövlət büdcəsinin tərkib hissəsinə daxil deyil. Lakin yerli büdcənin tənzimlənməsi prosesində bələdiyyələrin dövlət büdcəsindən vəsait almaq hüququ vardır. Yerli büdcənin tərtibi və icrası prosesində büdcə sisteminin qanunvericiliklə müəyyən edilmiş ümumi prinsipləri və Azərbaycan Respublikasında tətbiq olunan büdcə təsnifatından istifadə olunur. Büdcə ili yanvarın 1-də başlanır və dekabrın 31-də qurtarır.

Yerli büdcə müstəqildir. Bu müstəqillik öz mədaxil mənbələrinin və bələdiyyənin yerli büdcə vəsaitinə sərəncam vermək barədə müstəsna hüququnun olması ilə təmin edilir. Bələdiyyələrin müraciəti və qanunvericiliklə nəzərdə tutulmuş hallar istisna olmaqla, qanunvericilik və icra hakimiyyəti

orqanlarının bələdiyyələrin büdcə fəaliyyətinə müdaxiləsinə yol verilmir. Bələdiyyələr maliyyə ilininsonuna büdcədə əmələ gəlmiş sərbəst maliyyə qalıqlarına müstəqil sərəncam verirlər.

**2. Yerli büdcənin gəlirləri və xərcləri.**

Bələdiyyələr qanunlarla müəyyən olunmuş vəzifə və səlahiyyətlərin icrası üçün kifayət qədər maliyyə mənbəyinə malik olmalıdırlar. Bu, öz əksini yerli özünidrəetmə sahəsində aparıcı sənəd hesab olunan Yerli Özünüidarəetmə Haqqında Avropa Xartiyasında da tapıb. Xartiyanın 9-cu maddəsində yerli özünüidarə orqanlarının milli iqtisadi siyasət çərçivəsində öz funksiyalarını həyata keçirəcəkləri zaman sərbəst surətdə istifadə edə biləcəkləri kifayət qədər maliyyə vəsaitinə malik olmaq hüququ təsbit olunmuşdur. Qüvvədə olan qanunvericilik - Vergi Məcəlləsi, “Yerli (bələdiyyə) vergilər və ödənişlər haqqında” və “Bələdiyyələrin maliyyəsinin əsasları haqqında” qanunlar - Azərbaycanda yerli özünüidarə orqanları üçün xeyli sayda gəlir mənbələri müəyyənləşdirib. Bu gəlirləri vergi və qeyri vergi gəlirləri kimi təsnifləşdirmək mümkündür.

**Vergi mənbələri.**

- fiziki şəxslərin əmlak vergisi,
- fiziki şəxslərin torpaq vergisi,
- bələdiyyə mülkiyyətində olan hüquqi şəxslərin mənfəət vergisi
- yerli əhəmiyyətli tikinti materiallarından mədən vergisi.

**Qeyri-vergi mənbələri:**

- bələdiyyə əmlakı üzərində yerləşdirilən küçə (divar) reklamlarına görə ödənişlər,
- bələdiyyə mülkiyyətinin satışından və icarəyə verilməsindən daxilolmalar,
- mehmanxana, sanatoriya-kurort və turizm xidmətlərindən ödənişlər,
- bələdiyyə ərazisindəki ixtisaslaşmış avtomobil dayanacaqları üçün ödənişlər,
- fiziki və hüquqi şəxslərin, beynəlxalq təşkilatların və fondların maliyyə yardımları və qrantları
- bələdiyyələrin xüsusi olaraq ayırdığı torpaq sahələrində stasionar (yaxud səyyar) ticarət,
- ictimai iaşə və başqa xidmətlərə görə ödənişlər,
- dövlət büdcəsindən maliyyə yardımları .
- yerli (bələdiyyə) vergilər və ödənişlərə görə qanunvericiliklə müəyyən edilmiş qaydada hesablanmış faiz və sanksiyalar.

Qeyd olunan vergi və qeyri vergi növlərinə ümümi nəzər yetirək.

20 İyun 2014 tarixli "Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişikliklər edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu" ilə Vergi Məcəlləsinin 2 maddəsində (Əmlak vergisi və Torpaq vergisi) yerli vergilərlə bağlı ciddi dəyişiklik olunub. Bu qanunun qəbuluna qədər fiziki şəxslərin əmlak vergisi fiziki şəxslərin xüsusi mülkiyyətində olan əmlakın inventarlaşdırılmış dəyərinin 5000 manatdan yuxarı olan məbləğinin 0.1%-lə vergiyə cəlb olunması yolu ilə hesablanılırdı.

Yeni qanun dəyişikliyinə görə isə verginin hesablanılması üçün əmlakın dəyəri yox, sahəsi əsas götürülür. Yeni dəyişiklikdən sonra binaların sahəsinin (yaşayış sahələrinə münasibətdə - onların 30 kvadratmetrdən artıq olan hissəsinin) hər kvadratmetrinə görə aşağıdakı cədvəldə göstərilən dərəcələr tətbiq olunur. Əmlak vergisinin dərəcələri Bakı şəhəri, Gəncə, Sumqayıt şəhərləri və Abşeron rayonu, Digər şəhərlər (rayon tabeliyində olan şəhərlər istisna olmaqla), rayon mərkəzləri və Rayon tabeliyində olan şəhərlərdə, qəsəbələrdə və kəndlərdə (Bakı və Sumqayıt şəhərlərinin, habelə Abşeron rayonunun qəsəbə və kəndləri istisna olmaqla) olmaqla 4 kateqoriya üzrə fərqləndirilib. Bina Bakı şəhərində yerləşdikdə, həmin dərəcələrə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi 0,7-dən aşağı və 1,5-dən yuxarı olmayan əmsallar da tətbiq oluna bilər. Yeni qaydaların tətbiqi 1 Yanvar 2015 ci ildə etibarən başlamışdır.

**Cədvəl 1. Dəyişiklikdən əvvəl və sonra fiziki şəxslərin əmlak vergisi**

<table>
<tr><th rowspan="2">Misal</th><th rowspan="2">Yaşayış məntəqələri</th><th colspan="2">Fiziki şəxsin xüsusi mülkiyyətində olan yaşayış və qeyri-yaşayış sahələri</th></tr>
<tr><th>Dəyişiklikdən əvvəl</th><th>Dəyişiklikdən sonra</th></tr>
<tr><td rowspan="4">1. Bakı şəhərində (Nazirlər Kabinetinin müəyyən etdiyi əmsalı şərti olaraq 1,1 qəbul edək) fiziki şəxsin mülkiyyətində 60 $m^2$ sahəsi olan yaşayış evi mövcuddur. Evə görə əmlak vergisi aşağıdakı qayda ilə hesablanır:<br><br>(60 $m^2$ - 30 $m^2$) x 0,4 manat x 1,1 = 13,2 manat</td><td>Bakı</td><td rowspan="4">xüsusi mülkiyyətdə olan binaların inventarlaşıdırılmış dəyəri 5000 manatadək olduqda vergi tutulmur, 5000 manatdan çox olan məbləğdən 0,1 faiz</td><td>1 $m^2$- 0,4 manat</td></tr>
<tr><td>Gəncə, Sumqayıt şəhərləri və Abşeron rayonu</td><td>1 $m^2$- 0,3 manat</td></tr>
<tr><td>Digər şəhərlər (rayon tabeliyində olan şəhərlər istisna olmaqla), rayon mərkəzləri</td><td>1 $m^2$- 0,2 manat</td></tr>
<tr><td>Rayon tabeliyində olan şəhərlərdə, qəsəbələrdə və kəndlərdə (Bakı və Sumqayıt şəhərlərinin, habelə Abşeron rayonunun qəsəbə və kəndləri istisna olmaqla)</td><td>1 $m^2$-0,l manat</td></tr>
<tr><td>2. Sumqayıt şəhərində fiziki şəxsin mülkiyyətində 85 m sahəsi olan mənzili və sahibkarlıq məqsədi üçün istifadə etdiyi 25 m sahəsi olan obyekti vardır. Bu halda əmlak vergisi aşağıdakı qaydada hesablanacaq:<br><br>(85$m^2$-30$m^2$)x<0,3 manat = 16,5 manat<br>25 $m^2$ x 0,3 manat = 7,5 manat<br>Cəmi: 16,5 manat + 7,5 manat = 24 manat</td><td colspan="3"></td></tr>
</table>

Xüsusi şəxslərin xüsusi mülkiyyətində olan su və hava nəqliyyatı vasitələrinə görə:

- su nəqliyyatı vasitəsinin mühərrikinin 1 kub santimetri üçün *0,02 manat*;
- hava nəqliyyatı vasitəsinin mühərrikinin 1 kub santimetri üçün *0,02 manat*.
- mühərriki olmayan su və hava nəqliyyatı vasitələri üçün —onların bazar qiymətinin 1 faizi.

Qanunvericiliyə əsasən, misgərlik, qalayçılıq, dulusçuluq və saxsı məmulatlarının, təsərrüfat müxəlləfatının, bağçılıqbostançılıq alətlərinin, xalq musiqi alətlərinin, oyuncaqların, suvenirlərin, qamışdan və qarğıdan məişət əşyalarının düzəldilməsi, keramika məmulatlarının bədii işlənməsi, bədii tikmə, ağac materiallardan məişət alətlərinin hazırlanması sahəsində hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslərin sənətkarlıq emalatxanalarının binaları və ya binaların bu emalatxanalar yerləşən hissələri əmlak vergisinə cəlb edilmir.

Digər tərəfdən binaların icarəyə, kirayəyə verildiyi, habelə sahibkarlıq və ya kommersiya fəaliyyəti ilə məşğul olmaq üçün istifadə edildiyi hallar istisna olmaqla aşağıda göstərilən şəxslər, binalara görə ödəməli olduqları əmlak vergisininin məbləği *30 manata* qədər azaldılır.

- Azərbaycan Respublikasının Milli Qəhrəmanları;
- Sovet İttifaqı və Sosialist Əməyi Qəhrəmanları;
- pensiyaçılar;
- müddətli hərbi xidmət hərbi qulluqçularının və onların ailə üzvlərinin müddətli hərbi xidmət dövründə;
- Şöhrət ordeninin hər üç dərəcəsi ilə təltif edilmiş şəxslər;
- I və II qrup müharibə əlilləri;
- həlak olmuş, yaxud sonralar vəfat etmiş döyüşçülərin dul arvadları (ərləri);
- 1941—1945-ci illərdə arxa cəbhədə fədakar əməyinə görə orden və medallar ilə təltif edilmiş şəxslərin;
- qanunvericiliklə müəyyən edilmiş qaydada müharibə veteranı adı almış şəxslərin;
- Çernobıl AESdə qəza, mülki və ya hərbi təyinatlı atom obyektlərində digər radiasiya qəzaları nəticəsində, habelə nüvə qurğularının hər hansı növləri, o cümlədən nüvə silahı və kosmik texnika ilə bağlı olan sınaqlar, təlimlər və başqa işlər nəticəsində şüa xəstəliyinə və şüa yükü ilə əlaqədar xəstəliyə tutulmuş və ya bu xəstəlikləri keçirmiş şəxslər.

Su və hava nəqliyyatı vasitələrinə görə vergi onların qeydiyyatını həyata keçirən təşkilatlar tərəfindən verilən məlumatlar əsasında hər il yanvarın 1i vəziyyətinə hesablanılır. Belə qeydiyyatın olmadığı hallarda, həmin əmlakın sahibi mülkiyyətində olan su və hava nəqliyyatı vasitələri barədə lazımi məlumatları (buraxılış ili, alış qiyməti və texniki xarakteristikası) əks etdirən sənədləri hər il yanvar ayının 1dək müvafiq orqana təqdim edir. Bir neçə fiziki şəxsə məxsus olan su və hava nəqliyyatı vasitəsinə görə vergi həmin nəqliyyat vasitəsini öz adına qeydiyyatdan keçirmiş şəxsdən tutulur. Bələdiyyələr verginin ödənilməsi barədə tədiyə bildirişini vergi ödəyicilərinə avqustun 1dən gec olmayaraq verməlidirlər.

Cari il üçün verginin məbləği bərabər hissələrlə — həmin il avqustun 15-dək və noyabrın 15dək ödənilir. Əmlak vergisi əmlakın əvvəlki sahibi tərəfindən ödənilmədiyi hallarda, vergi bu maddə ilə müəyyən edilmiş ödəmə vaxtında həmin əmlakın sahibi tərəfindən bələdiyyə büdcəsinə ödənilir.

20 İyun 2014 tarixli “Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişikliklər edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu” ilə Vergi Məcəlləsinin 2 maddəsində (Əmlak vergisi və Torpaq vergisi) yerli vergilərlə də bağlı ciddi dəyişiklik olunub. Belə ki, Kənd təsərrüfatı torpaqları istisna olmaqla, digər - Sənaye, tikinti, nəqliyyat, rabitə, ticarət-məişət xidməti və digər xüsusi təyinatlı torpaqlar və Yaşayış fondlarının, həyətyanı sahələrin torpaqları və vətəndaşların bağ sahələrinin tutduğu torpaqlar üzrə hesablanan vergilərin dərəcələrində dəyişiklik olunub. Hər iki qrup torpaqlar üzrə onların sahəsi 10 min kvadrat metrə qədər olduqda torpaq sahəsinin hər 100 kvadratmetrinə görə bir dərəcə ilə, 10 min kvadrat metrdən yuxarı olan hissə üçün torpaq sahəsinin hər 100 kvadratmetrinə görə isə ayrı dərəcə ilə hesablanacaq. Əvvəllər 10 min kvadrat metrdən yuxarı olan hissə üçün ayrıca hesablama tətbiq olunmurdu.

Qeyd olunan torpaq vergilərinin dərcələri Bakı şəhəri, habelə onun qəsəbə və kəndləri, Gəncə, Sumqayıt, Xırdalan şəhərləri və Abşeron rayonunun qəsəbə və kəndləri, Digər şəhərlər və rayon mərkəzləri və Rayon tabeliyində olan şəhərlər, qəsəbələr və kəndlər olmaqla 4 kateqoriya üzrə fərqləndirilib.  Dəyişikliklər 1 yanvar 2015-ci ildən qüvvəyə minib. Torpaq vergisinin əvvəlki və yeni hesablanma qaydasını aşağıdakı cədvəldə görmək mükündür.

Cədvəl 2. Dəyişiklikdən əvvəl və sonra fiziki şəxslərin torpaq vergisi

<table>
<tr>
<td rowspan="7">Misal<br><br>1. Fiziki şəxsin Bakı şəhərində 6 sot həyətyanı sahəsi var. Bu halda torpaq vergisi aşağıdakı kimi hesablanır<br><br>(60 m2 – 30 m2) x 0,4 manat x 1,1 manat = 13,2 manat<br><br>2. Fiziki şəxsin Lənkəranın Liman şəhərində 20 sot həyətyanı sahəsi var. Bu halda torpaq vergisi aşağıdakı kimi hesablanır:<br><br>(2000 m$^2$/100m$^2$)x 0,1 = 2 manat<br><br>3. Müharibə veteranı olan şəxsin Cəlilabad rayonunun Göytəpə şəhərində 12 ha bağ sahəsi var. Bu halda torpaq vergisi torpaq sahəsinin Ölçüsündən və vergi güzəşti nəzərə alınmaqla aşağıdakı kimi hesablanır:<br><br>(10000 m$^2$/100m$^2$)x 0,1 manat = 10 manat<br><br>(10000 m$^2$-ə qədər olan hissə üçün)<br><br>(2000 m$^2$/100m$^2$)x 0,2 manat = 4 manat<br><br>(10000 m$^2$-dən yuxarı olan hissə üçün)<br>(10 manat + 4 manat) - 10 manat (vergi güzəşti) = 4 manat</td>
<td rowspan="3">Yaşayış məntəqələri</td>
<td colspan="3">Sənaye, tikinti, nəqliyyat, rabitə, ticarət-məişət xidməti və digər xüsusi təyinatlı torpaqlar (manatla)</td>
<td colspan="3">Yaşayış fondlarının, həyətyanı sahələrin, torpaqların və vətəndaşların bağ sahələrinin tutduğu torpaqlar (manatla)</td>
</tr>
<tr>
<td rowspan="2">Dəyişiklikdən əvvəl</td>
<td colspan="2">Dəyişiklikdən sonra</td>
<td rowspan="2">Dəyişiklikdən əvvəl</td>
<td colspan="2">Dəyişiklikdən sonra</td>
</tr>
<tr>
<td>10000 m$^{2}$-dək olduqda</td>
<td>10000 m$^{2}$-dən yuxarı olduqda</td>
<td>10000 m$^{2}$-dək olduqda</td>
<td>10000 m$^{2}$-dən yuxarı olduqda</td>
</tr>
<tr>
<td>Bakı</td><td>10</td><td>10</td><td>20</td><td>0,6</td><td>0,6</td><td>1,2</td>
</tr>
<tr>
<td>Gəncə, Sumqayıt şəhərləri və Abşeron Rayonu</td><td>8</td><td>8</td><td>16</td><td>0.5</td><td>0.5</td><td>1</td>
</tr>
<tr>
<td>Digər şəhərlər (rayon tabeliyində olan şəhərlər istisna olmaqla rayon mərkəzləri</td><td>4</td><td>4</td><td>8</td><td>0,3</td><td>0,3</td><td>0,6</td>
</tr>
<tr>
<td>Rayon tabeçiliyində olan şəhərlərdə. qəsəbələrdə və kəndlərdə (Bakı və</td><td>2</td><td>2</td><td>4</td><td>0,1</td><td>0,1</td><td>0.2</td>
</tr>
</table>

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | Sumqayıt səhərlərinin. habelə Abşeron rayonun kənd və qəsəbələri | | | | | | |

Qanunvericiliyə əsasən, bələdiyyə mülkiyyətində olan aşağıdakı torpaqlar torpaq vergisinə cəlb olunmur:

- yaşayış məntəqələrinin ümumi istifadədə olan torpaqları;
- bələdiyyələrin mülkiyyətində və istifadəsində olan torpaqlar;
- istehsal fəaliyyətinə cəlb edilməmiş bələdiyyələrin meşə fondu, su fondu və digər kateqoriyalara aid edilmiş torpaqları.

Aşağıda göstərilən şəxslərin mülkiyyətində olan torpaqlara görə torpaq vergisinin məbləği *10 manat* azaldılır.

- Azərbaycan Respublikasının Milli Qəhrəmanları;
- Sovet İttifaqı və Sosialist Əməyi Qəhrəmanları;
- Şöhrət ordeninin hər üç dərəcəsi ilə təltif edilmiş şəxslər;
- I və II qrup müharibə əlilləri;
- həlak olmuş, yaxud sonralar vəfat etmiş döyüşçülərin dul arvadları (ərləri);
- 1941—1945-ci illərdə arxa cəbhədə fədakar əməyinə görə orden və medallar ilə təltif edilmiş şəxslər;
- qanunvericiliklə müəyyən edilmiş qaydada müharibə veteranı adı almış şəxslərin;
- Çernobıl AES - da qəza, mülki və ya hərbi təyinatlı atom obyektlərində digər radiasiya qəzaları nəticəsində, habelə nüvə qurğularının hər hansı növləri, o cümlədən nüvə silahı və kosmik texnika ilə bağlı olan sınaqlar, təlimlər və başqa işlər nəticəsində şüa xəstəliyinə və şüa yükü ilə əlaqədar xəstəliyə tutulmuş və ya bu xəstəlikləri keçirmiş şəxslər.

Torpaq vergisi torpaq barəsində mülkiyyət və ya istifadə hüququnu təsdiq edən sənədlər əsasında müəyyənləşdirilir. Tikililərin və qurğuların altında olan torpaqlara, həmçinin obyektlərin sanitariya mühafiəsi üçün zəruri olan torpaq sahələrinə görə torpaq vergisi tutulur. Bələdiyyələr tərəfindən hər il iyulun 1-dək fiziki şəxslərə torpaq vergisi hesablanılır və tədiyə bildirişləri avqustun 1dən gec olmayaraq onlara çatdırılır. Ayrılıqda bir neçə hüquqi və ya fiziki şəxsin mülkiyyətində və ya

istifadəsində olan tikililərin altında qalan və ya onlara xidmət üçün ayrılmış torpaq sahələrinə görə vergi onlara məxsus tikili sahələrinə mütənasib surətdə hesablanır. Əgər torpaq vergisi torpağın əvvəlki sahibi tərəfindən ödənilməyibsə, bu halda vergi müəyyən edilmiş ödəmə vaxtına həmin torpağın sahibi tərəfindən ödənir. Torpaq vergisi bərabər məbləğlərdə 15 avqust və 15 noyabr tarixlərindən gec olmayaraq ödənilir. Torpaq vergisi torpağın əvvəlki sahibi tərəfindən ödənilmədiyi halda, vergi bu maddə ilə müəyyən edilmiş ödəmə vaxtına həmin torpağın sahibi tərəfindən ödənilir..

Azərbaycan Respublikasının ərazisində faydalı qazıntıların çıxarılmasına görə ödənilən vergi mədən vergisi adlanır və yerin təkindən bu faydalı qazıntıları çıxaran fiziki şəxslər və müəssisələr mədən vergisinin ödəyiciləridir. Aşağıdakı yerli əhəmiyyətli tikinti materialları üzrə mədən vergisi bələdiyyə büdcəsinə ödənilir:

● kərpic-kirəmit gilləri

● tikinti qumları

● çınqıl xammalı

Fiziki şəxslər və müəssisələr bu tikinti materiallarına görə mədən vergisini onlarınyerin tərkindən və təkindən çıxarılan hər **1 kub metri** üçün **0,5 manat** məbləğində ödəyirlər. Mədən vergisi üzrə vergi tutulan əməliyyatın aparıldığı vaxt faydalı qazıntıların çıxarıldığı vaxt sayılır. Mədən vergisi üzrə hesabat dövrü təqvim ayı sayılır.

Hesabat ayı üçün mədən vergisinin məbləği faydalı qazıntıların çıxarıldığı vaxt sayılır. Mədən vergisi üzrə hesabat dövrü təqvim ayı sayılır. Hesabat ayı üçün mədən vergisinin məbləği faydalı qazıntıların çıxarıldığı aydan sonrakı ayın 20-dək ödənilir. Mədən vergisinin ödəyiciləri mədən vergisinin bəyannaməsini hər ay, hesabat ayından sonrakı ayın 20 –dən gec olmayaraq bələdiyyələrə təqdim etməlidirlər.

Misal

"İnşaat" MMC Kürdəmir rayonu ərazisində yanvar ayı ərzində 200 kub metr çınqıl xammalı çıxarmışdır. Bu halda yanvar ayı üzrə yerli büdcəyə ödənilməli olan mədən vergisinin məbləği 100 manat təşkil edəcəkdir.

**Verginin hesablaması: 200 kub.metr x 0,5 manat = 100 AZN**

Bələdiyyə mülkiyyətində olan müəssisə və təşkilatlar mənfəət vergisinin ödəyiciləridir. Bələdiyyə müəssisələri “Bələdiyyələrin statusu haqqında” Azərbaycan Respublikasının Qanununa əsasən bələdiyyələr tərəfindən təsərrüfat fəaliyyəti və qanunvericiliklə qadağan edilməmiş başqa fəaliyyətlə məşğul olmaq üçün müstəqil hüquqi şəxs statusunda yaradılır. Bələdiyyə müəssisələri üçün vergitutma obyekti onun mənfəətidir. Müəssisənin mənfəəti təqvim ili ərzində Vergi Məcəlləsi ilə müəyyən edilən bütün gəlirlər (vergidən azad edilən gəlirdən başqa), gəlirdən çıxılan xərc arasındakı fərq kimi müəyyən edilir.

Bələdiyyə müəssisələrinin mənfəətindən Vergi Məcəlləsinin 105.1-ci maddəsinə əsasən 20 % dərəcə ilə vergi tutulur. Hesabat ili üçün hesablanmış mənfəət vergısinin məbləği hesabat ilindən sonrakı ilin mart ayının 31-dən gec olmayaraq **mənfəət vergisinin bəyannaməsi** tərtib edilərək müvafiq ərazinin bələdiyyə büdcəsinə ödənilir.

Misal

“A” bələdiyyəsi tərəfindən istirahət parkında ictimai iaşə xidmətləri göstərən “Nuş” müəssisəsi yaradılmışdır. Hesabat ili ərzində göstərilən xidmətlərdən əldə edilən gəlir 50 000 manat, həmin xidmətlərin göstərilməsinə çəkilən xərclər isə 35 000 manat olmuşdur. Bu halda müəssisənin vergi tutulan mənfəəti 15 000 manat (50 000 manat – 35 000 manat), mənfəətdən hesablanmış vergi isə 3000 manat olacaqdır.

**Verginin hesablaması: 15 000 AZN x 20% = 3 000**

Bələdiyyə mülkiyyətində olan torpaqlarda, binalarda və digər obyektlərdə küçə (divar) reklamının yerləşdirilməsi və yayımı üçün ödənişlər. «Reklam haqqında» Azərbaycan Respublikası Qanunun 15-ci maddəsinə əsasən bələdiyyə mülkiyyətində olan torpaqlarda, binalarda və digər obyektlərdə və digər obyektlərdə yerləşdirilən küçə reklamlarına görə ödənişlər yerli büdcələrə köçürülür. Reklamın yerləşdirilməsi və ya yayılması müvafiq obyektin mülkiyyətçisi ilə müqavilə əsasında həyata keçirilir.

Qüvvədə olan qanunvericiliyə görə, bələdiyyələr onların ərazisində əhaliyə kurort, sanatoriya, mehmanxana və turizm xidməti göstərən obyektlərə hər sutka üçün bir nəfər üçün şərti maliyyə vahidinin 1 mislindən (1,1 manat) çox olmamaqla ödəniş tətbiq etməlidir.

Azərbaycanda bələdiyyələrin fəaliyyətini təmin etmək üçün nəzərdə tutulan mühüm gəlir mənbələrindən biri dövlət büdcəsindən ayırmalardır. «Büdcə sistemi haqqında» Qanuna əsasən, dövlət büdcəsindən yerli büdcələrə büdcə kəsirini örtmək üçün transfertlər – dotasiyalar, həmçinin məqsədli maliyyələşdirmə - subsidiya və subvensiya verilə bilər.

Bələdiyyə büdcəsinin bilavasitə yerli gəlirlər hesabına formalaşması, onların maliyyə müstəqilliyinin artması və dövlət büdcəsindən asılılığını azaltması baxımından çox vacibdir. Bunun üçün qanuvericiliklə bələdiyyələrə həvalə olunmuş vergi və qeyri vergi mənbələri üzrə potenial gəlirlərin maksimum dərəcədə bələdiyyə büdcəsinə cəlb edilməsi zəruridir. Bu isə öz növbəsində səmərəli vergi-büdcə siyasətinin işlənib hazırlanmasını tələb edir. Hər bir bələdiyyə qeyd olunan və əlavə daxili gəlir mənbələrindən ən yaxşı səviyyədə istifadə yollarını araşdırmalıdırlar. Bu istiqamətdə bələdiyyələrin aşağıdakı məlumatlara diqqət mərkəzində saxlamağı tövsiyyə olunur:

- ✓ *bələdiyyə ərazisində vergiyə cəlb olunan torpaq sahələrinin həcmi və onların təyinatı üzrə bölgüsü (ticarət və sənaye, həyətyanı, pay torpağı, icarədə olan torpaqlar, perspektiv inkişaf fondu torpaqları və s.) Bunun üçün kadastrın hazırlanması, mümkün olan hallarda isə istifadəni asanlaşdırmaq üçün elektron kadastrın aparılması məqsədyönlü olardı. Bu, bələdiyyə torpaqlarının idarəolunmasını asanlaşdırmaqla yanaşı, vergisindən yayınma hallarının da azalmasına gətirib çıxarar. Kadastrda torpaq sahələrinin fiziki təsviri, ölçüləri, sahibi, təyinatı, ünvanı, bazar qiyməti, üzərinə hesablanan vergi məbləği və s. yer ala bilər.*

- ✓ *Bələdiyyə ərazisində vergiyə cəlb olunan (vergi obyekti olan) daşınan və daşınmaz əmlakın dəqiqliklə və detallı şəkildə siyahıya alınması və vaxtaşırı yenilənməsi (say, ünvan ölçüləri və s). Bu, bələdiyyə ərazisində yerləşən bütün əmlakın istisnasız vergiyə cəlb olunmasına imkan yaradar. Çünki, xüsusilə əmlak vergisinin hesablanmasında tətbiq olunan yeni qaydalar (verginin əmlakın inventar dəyəri yox, əmlakın ölçüsünə əsasən hesablanması) onun bələdiyyə büdcəsi üçün*

*gəlirliliyini və əhəmiyyətini artırmışır. Vergi gəlirlərinin həcmini artırmaq bilavasitə yığımında səmərəliliyin artırılmasına da bağlıdır. Bu baxımdan ərazidəki hər bir əmlakın vergi məbləği bələdiyyə tərəfindən düzgün hesablanaraq elektron məlumat bazasında yerləşdirilməli və verginin ödənilməsi barədə tədiyə bildirişini vergi ödəyicilərinə vaxtında çatdırmalıdır. Eyni məsələlər torpaq vergisi üçün də keçərlidir.*

- ✓ *Müasir dövrün tələbi kimi vergi ödənişlərinin elektronlaşdırılması prosesinin sürətləndirilməsi məqsədəuyğundur.*

- ✓ *Vergi güzəştləri, onların məqsədləri və strukturu, vergi güzəştləri hesabına bələdiyyə büdcəsindən təxmini potensial itkilər.*

- ✓ *Bələdiyyənin vergi ödəyicilərinin ümumi sayı, tədiyyəçilərin təşkilati-hüquqi statusuna görə bölgüsü*

- ✓ *Bələdiyyənin debitor, kreditor borcları və onların strukturu*

**Yerli Büdcənin xərcləri**

Bələdiyyə büdcələrin xərclərinin həcmini və istiqamətlərini bələdiyyələr özləri müəyyənləşdirir. Bələdiyyənin büdcəsi aşağıdakılar nəzərə alınmaqla bələdiyyələrin müəyyən etdiyi xərc normativləri əsasında formalaşdırılır.

- ➢ idarəetmə xərcləri,
- ➢ sosial-məişət, yaşayış, mədəniyyət və idman obyektlərinin, habelə
- ➢ əhalinin ümumi istifadəsində olan küçə, həyət və bağların saxlanması xərcləri

"Büdcə sistemi haqqında" və "Bələdiyyələrin maliyyəsinin əsasları haqqında" qanunlara əsasən yerli büdcəini xərcləri aşağıdakı istiqamətlərdən ibarət ola bilər:

- ➢ yerli əhəmiyyətli məsələlərin həlli ilə əlaqədar xərclər, o cümlədən yerli sosial müdafiə və sosial inkişaf, iqtisadi, ekoloji və s. proqramlarının maliyyələşdirilməsi üzrə xərclər;
- ➢ bələdiyyə orqanlarının və təşkilatlarının saxlanılması xərcləri, o cümlədən bələdiyyə qulluqçularının, bələdiyyə mülkiyyətinin obyektlərinin sığortalanmasına xərclər;

- dövlət orqanları tərəfindən bələdiyyələrə verilmiş əlavə səlahiyyətlərin həyata keçirilməsi ilə əlaqədar xərclər;
- bələdiyyə qiymətli kağızları (istiqraz, lotoreya və s) üzrə borclara xidmət və onların ödənilməsi ilə əlaqədar xərclər;
- ssudalar üzrə borclara xidmət və onların ödənilməsi ilə əlaqədar xərclər;
- bələdiyyələrin mənzil-kommunal təsərrüfatının təşkili, inkişafı və saxlanılması ilə əlaqədar xərclər;
- bələdiyyə yollarının tikintisi və saxlanması ilə əlaqədar xərclər;
- bələdiyyə ərazisində ətraf mühitin mühafizəsi ilə əlaqədar xərclər;
- yerli əhəmiyyətli məsələlərə aid edilən digər xərclər.

Azərbaycan Respublikasının Maliyyə Nazirliyi hazırladığı Azərbaycan Respublikası Dövlət büdcəsi təsnifatının Tərkibini hazırlamışdır. Həmin sənədə əsasən bələdiyyələrin xərclərinin iqtisadi təsnifatı aşağıdakı kimi göstərilə bilər.

1. **Cari xərclər**. Buraya aiddir:

   a. **Əməyin ödənişi, malların alınması və xidmətlərin haqqının ödənilməsi;**

      i. **Əməyin ödənişi fondu** - *Ştatda olan işçilərin əmək haqqı, Ştatdankənar işçilərin əmək haqqı, Əməyin ödənilməsi ilə bağlı sair pul ödənişləri.*

      ii. **Əmək haqqına üstəlik -** *Dövlət Sosial Müdafiə Fonduna ayırmalar, İcbari dövlət sığortası, Tibbi sığorta (tibbi yardım)*

      iii. **Malların alınması və xidmətlərin haqqının ödənilməsi -** *Dəftərxana ləvazimatı, cari təsərrüfat məqsədləri üçün mal və materialların alınması, Dərman və sarğı ləvazimatlarının alınması, Yumşaq inventar və paltarların alınması, təmiri xərclərinin ödənilməsi, Ərzaq məhsullarının alınması, Ezamiyyətlər və xidməti səfərlər, işçilərə kompensasiya ödənişləri, Nəqliyyat xidmətləri haqqının ödənilməsi, Rabitə xidmətləri haqqının ödənilməsi, Kommunal xidmətləri haqqının ödənilməsi, Abadlaşdırma xidmətləri haqqının ödənilməsi, Layihələndirmə üzrə xidmətlərin haqqının ödənilməsi, İnventar və*

*avadanlığın alınması, təmiri xərclərinin ödənilməsi, Binaların cari təmiri xərclərinin ödənilməsi, Sair cari xərclər*

b. **Faizlər üzrə ödənişlər;**

i. **Daxili borc üzrə ödənişlər -** *Ölkə daxilində cəlb edilmiş sair kredit və borc resursları üzrə faizlərin ödənilməsi*

c. **Subsidiyalar və cari ödənişlər** – *bələdiyyə müəssisələrinə subsidiyalar, əhaliyə pensiya, müavinət, təqaüd və yardımlar*

2. **Əsaslı xərclər**. Buraya aiddir:

a. **əsas fondlara əsaslı vəsait qoyuluşu**

i. **Əsas vəsaitlərin alınması -** *Bina və tikililərin alınması, Nəqliyyat vasitələrinin alınması, zəruri avadanlıqların və uzun müddət istifadə olunan əşyaların alınması*

ii. **Əsaslı tikinti –** *bələdiyyə ərazisində sosial-mədəni və məişət təyinatlı obyektlərin tikintisi, bələdiyyənin inzibati və idarəetmə obyektlərinin tikintisi, bələdiyyə yollarının tikintisi, Sair tikintilər*

**iii.** **Əsaslı təmir -** *Sosial-mədəni və məişət təyinatlı obyektlərin əsaslı təmiri, İnzibati və idarəetmə obyektlərinin əsaslı təmiri, Yolların əsaslı təmiri, Sair əsaslı təmir*

b. **bələdiyyə ehtiyatlarının yaradılması;**

**i.** **Bu ehtiyatları yaratmaq üçün əmtəə-material dəyərlilərinin alınması**

**ii.** **Sair ehtiyatların alınması**

c. **torpaq və qeyri-maddi aktivlərin alınması;**

**i.** **Torpağın alınması**

**ii.** **Qeyri-maddi aktivlərin alınması**

d. **əsaslı ödənişlər (transfertlər).**

3. **Qaytarılan məbləğ çıxıldıqdan sonra kreditlərin verilməsi**

a. **Bələdiyyə daxilində qaytarılan məbləğ çıxıldıqdan sonra kreditlərin verilməsi**

### b. Bələdiyyə xaricində qaytarılan məbləğ çıxıldıqdan sonra kreditlərin verilməsi

Azərbaycan Respublikasının büdcə xərclərinin inzibati (təşkilatlar üzrə) təsnifatı dövlət büdcəsindən birbaşa büdcə vəsaitlərinin baş sərəncamçıları üzrə bölüşdürülməsini əks etdirən xərclərin qruplaşdırılmasıdır.

Yerli büdcələrdə həmçinin yerli sosial müdafiə, sosial və iqtisadi inkişaf, habelə ekoloji proqramların maliyyələşdirilməsi üçün xərclər nəzərdə tutula bilər. Bələdiyyənin ərazisində yaşayan əhalinin aztəminatlı təbəqəsindən olan mərhumların dəfn və yas mərasimlərinin təşkilinə yardım məqsədi ilə yerli büdcədə zəruri xərclər nəzərdə tutulur və təyinatı üzrə sərf edilir. Yerli büdcənin xərc istiqamətləri müəyyən edilərkən əmək haqlarına ayırmalar ümumi büdcənin əlli faizindən çox ola bilməz. Bələdiyyə büdcəsindən pul vəsaiti yalnız bələdiyyə iclasının qərarı ilə ayrılır və bu qərarda həmin vəsaitin təyinatı, məqsədi və dəqiq miqdarı göstərilməlidir. Yerli büdcələrin xərclərinin öz gəlirləri ilə təmin olunmayan hissəsi (yerli büdcənin kəsiri) dövlət büdcəsindən alınan dotasiya ilə örtülə bilər. Dövlət büdcəsindən dotasiya, subvensiya və ssuda alan yerli büdcənin xərclərinin hesablanmasında tətbiq olunan normativlər dövlət büdcəsinin xərclərinin hesablanması üçün tətbiq olunan xərc normativlərindən yüksək olmamalıdır. Dotasiyanın həddinin hesablanmasında bələdiyyənin ərazisində yaşayan əhalinin sayı, ölkənin maliyyə ehtiyatlarının formalaşmasında onların xüsusi çəkisi, bələdiyyənin gəlir və xərcləri, bələdiyyəyə daxil olan yaşayış məntəqələrinin cəbhə xəttində, sərhəd zonasında, yüksək dağlıq ərazidə yerləşməsi, yerli əhalinin yaşayış səviyyəsi, nəzərdə tutulan sosial-iqtisadi layihələr nəzərə alınmalıdır.

Əlavə səlahiyyətlərin həyata keçirilməsi üçün qanunvericilik və icra hakimiyyətləri tərəfindən ayrılan məqsədli vəsait, o cümlədən subvensiya hesabına xərclərin maliyyələşdirilməsi yerli büdcənin məxaric hissəsində ayrıca sətrlə göstərilir.

Hazırda dünya təcrübəsinə hədəflərə istiqamətlənmiş (başqa sözlə perfomans əsaslı) büdcə tərtibatı geniş yayılmışdır. Bu tip büdcələrdə, büdcə xərcləri icra olunacaq konkret proqramlar üzrə bölünür və həmin büdcə xərcləri ilə əldə olunacaq nəticələr müqayisəli şəkildə göstərilir. Büdcə xərclərinin bu formada təqdimatı xərclərin əhaliyə nə vəd etdiyini göstərir ki, nəticəsə büdcə vəsaitlərinin nə qədər səmərəli xərcləndiyi də aydın görünmüş olur. Belə təqdimat bələdiyyənin seçicilər qarşısında məsuliyyətini artırır və cəmiyyətə onun fəaliyyətini qiymətləndirmə imkanı yaradır.

Mövcud qanunvericiliyə əsasən bələdiyyələr Statistika Komitəsinə yerli büdcənin gəlir və xərclərinin icrasına dair rüblük və illik hesabatlar göndərməlidirlər. Həmin hesabatlar Statistika Komitəsinin tərtib etdiyi 1-BB-li formaya əsasən doldurulur. Həmin formanı aşağıda görmək mümkündür.

**Cədvəl 3. Statistika Komitəsinin tərtib etdiyi 1-BB-li forma**

**R Ə S M İ   S T A T İ S T İ K A   H E S A B A T I**

*Alınmış ilkin məlumatların məxfi saxlanmasına zəmanət verilir*

**1 – BB №-li forma**

**Rüblük, illik**

**Hesabat təqdim edən təşkilatın**

**adı** ________________________________

________________________________

**ünvanı** ________________________________

________________________________

Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin 15 yanvar 2015-ci il tarixli, 6/08 №-li qərarı ilə təsdiq edilmişdir

Hesabat forması yerli özünüidarəetmə (bələdiyyə) orqanları tərəfindən doldurulur, 1-ci, 2-ci və 3-cü rüblər üzrə məlumatlar hesabat dövründən sonrakı ayın 30-dək, 4-cü rüb və ilin yekunu üzrə məlumatlar il başa çatdıqdan sonra 45 gün ərzində yerləşdiyi rayonun (şəhərin) statistika orqanına və ya elektron hesabat (məlumat) www.stat.gov.az internet səhifəsində real-vaxt rejimində təqdim edilir

| **İdarə sənədlərinin təsnifatı üzrə formanın kodu** | **Müəssisənin İdentifikasiya (statistik) kodu** | **VÖEN** |
|---|---|---|
| **0 3 1 0 1 1 2 4** | | |

Hesabat formasına və onun doldurulmasına dair rəy və təkliflərinizi Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinə göndərə bilərsiniz.
Elektron poçt ünvanı: www.hesabat@azstat.org

İnternet səhifə: www.stat.gov.az

## Bələdiyyə orqanının büdcəsinin icrası haqqında

**201 ____ ilin _________rübü üzrə**

**A bölməsi. Gəlirlər (manatla)**

| Göstəri-cinin kodu | Göstəricilərin adı | Sətrin №-si | Hesabat rübü ərzində icra olunmuşdur | İlin əvvəlindən icra olunmuşdur |
|---|---|---|---|---|
| A | B | C | 1 | 2 |
| A. | ***Yerli büdcənin gəlirləri – cəmi (sətir 02 + sətir 07 + sətir 21)*** | 01 | | |
| | *o cümlədən:* | | | |
| A.1. | Vergilərdən daxilolmalar (03-06-cı sətirlərin cəmi) | 02 | | |
| | *o cümlədən:* | | | |
| A.1.1. | - fiziki şəxslərdən torpaq vergisi | 03 | | |
| A.1.2. | - fiziki şəxslərdən əmlak vergisi | 04 | | |
| A.1.3. | - yerli əhəmiyyətli tikinti materialları üzrə mədən vergisi | 05 | | |
| A.1.4. | - bələdiyyə mülkiyyətində olan müəssisə və təşkilatlardan mənfəət vergisi | 06 | | |
| A.2. | Vergi olmayan gəlirlər (sətir 08+09+10+11+12+13+16+19+20) | 07 | | |
| | *o cümlədən:* | | | |
| A.2.1. | - bələdiyyə mülkiyyətinə daxil olan əmlakın istifadəsindən gələn gəlirlər | 08 | | |
| A.2.2. | - küçə (divar) reklamının yerləşdirilməsi və yayımı üçün ödənişlər | 09 | | |
| A.2.3. | - bələdiyyələr tərəfindən xüsusi ayrılmış torpaq sahəsində stasionar və ya səyyar ticarət ictimai işə və digər xidmətlərə görə ödənişlər | 10 | | |
| A.2.4. | - sanatoriya-kurort, mehmanxana və turizm xidmətlərinə görə ödənişlər | 11 | | |
| A.2.5. | - avtomobillərin dayanacaqları üçün ödənişlər | 12 | | |
| A.2.7. | - bələdiyyə əmlakının və torpağın özəlləşdirilməsindən və icarəyə verilməsindən gəlirlər (sətir 14+sətir 15) | 13 | | |
| | *o cümlədən:* | | | |
| A.2.7.1. | - bələdiyyə əmlakının və torpağın özəlləşdirilməsindən | 14 | | |
| A.2.7.2. | - bələdiyyə əmlakının və torpağın icarəyə verilməsindən | 15 | | |

| | | | | |
|---|---|---|---|---|
| A.2.8. | - fiziki və hüquqi şəxslərin maliyyə yardımları | 16 | | |
| | *o cümlədən:* | | | |
| A.2.8.1. | -fiziki şəxslərin maliyyə yardımları | 17 | | |
| A.2.8.2. | -hüquqi şəxslərin maliyyə yardımları | 18 | | |
| A.2.9. | - beynəlxalq təşkilatların və fondların maliyyə yardımları və qrantları | 19 | | |
| A.2.10. | - Azərbaycan Respublikasının dövlət büdcəsindən verilən dotasiya və subvensiyalar | 20 | | |
| A.3. | Digər gəlirlər | 21 | | |

## B bölməsi. Xərclərin funksional təsnifat üzrə bölgüsü (manatla)

| Göstəricinin kodu | Göstəricilərin adı | Sətrin №-si | Hesabat rübü ərzində icra olunmuşdur | İlin əvvəlindən icra olunmuşdur |
|---|---|---|---|---|
| A | B | C | 1 | 2 |
| B | **Yerli büdcənin xərcləri, cəmi** | 22 | | |
| | *o cümlədən:* | | | |
| B.1. | - yerli özünüidarəetmə orqanının saxlanılmasına | 23 | | |
| B.2. | - təhsil xərcləri | 24 | | |
| B.3. | - səhiyyə xərcləri | 25 | | |
| B.4. | - sosial müdafiə və sosial təminat xərcləri | 26 | | |
| | *o cümlədən:* | | | |
| B.4.1. | - sosial müdafiə xərcləri | 27 | | |
| B.4.2. | - sosial təminat xərcləri | 28 | | |
| B.5. | - mədəniyyət, incəsənət, informasiya, bədən tərbiyəsi və digər kateqoriyalara aid edilməyən sahədə fəaliyyətlə bağlı xərclər | 29 | | |
| B.5.1. | *ondan:* - bədən tərbiyəsi, gənclər siyasəti və turizm xərcləri | 30 | | |
| B.6. | - mənzil-kommunal təsərrüfatı xərcləri | 31 | | |
| | *o cümlədən:* | | | |
| B.6.1. | - mənzil təsərrüfatı xərcləri | 32 | | |
| B.6.2. | - kommunal təsərrüfatı xərcləri | 33 | | |
| B.7. | - yanacaq və enerji xərcləri | 34 | | |

| | | | | |
|---|---|---|---|---|
| B.8. | - kənd təsərrüfatı, meşə təsərrüfatı, balıqçılıq, ovçuluq və ətraf mühitin mühafizəsi xərcləri | 35 | | |
| B.8.1. | *ondan:* - ətraf mühitin mühafizəsi xərcləri | 36 | | |
| B.9. | - sənaye, tikinti və faydalı qazıntılar üzrə xərclər | 37 | | |
| B.10. | - nəqliyyat və rabitə xərcləri | 38 | | |
| B.10.1. | *ondan:* - avtomobil yolları və avtomobil nəqliyyatı xərcləri | 39 | | |
| B.11. | - digər xərclər | 40 | | |

## C bölməsi. Nəticə (manatla)

| A | B | C | 1 | 2 |
|---|---|---|---|---|
| C.1 | Profisit / kəsir (-), (sətir 01 - sətir 22) | 41 | | |
| C.2 | Kəsirin bağlanması ilə bağlı daxilolmalar | 42 | | |
| C.2.1. | - qiymətli kağızların satışından | 43 | | |
| C.2.2. | - eyni səviyyəli dövlət orqanlarından alınmış vəsaitlər | 44 | | |
| C.2.3. | - banklardan büdcə kəsirlərinin maliyyələşdirilməsi üçün alınan kreditlər | 45 | | |
| C.2.4. | - beynəlxalq iqtisadi təşkilatlardan kreditlərin cəlb olunması | 46 | | |
| C.2.5. | - bank ssudaları və avanslar | 47 | | |

## Ç bölməsi. Xərclərin iqtisadi təsnifat üzrə bölgüsü (manatla)

| Göstəricinin kodu | Göstəricilərin adı | Sətrin №-si | Hesabat rübü ərzində icra olunmuşdur | İlin əvvəlindən icra olunmuşdur |
|---|---|---|---|---|
| A | B | C | 1 | 2 |
| Ç. | **Yerli büdcənin xərcləri, cəmi** | 48 | | |
| | *o cümlədən:* | | | |
| Ç.1. | - əməyin ödənişi (50 və 51-ci sətirlərin cəmi) | 49 | | |
| | *o cümlədən:* | | | |
| Ç.1.1. | - əmək haqqı | 50 | | |
| Ç.1.2. | - əmək haqqına üstəlik | 51 | | |

| | | | | |
|---|---|---|---|---|
| Ç.2. | - malların (işlərin və xidmətlərin) satın alınması | 52 | | |
| | *o cümlədən:* | | | |
| Ç.2.1. | - idarənin saxlanılması | 53 | | |
| Ç.2.2. | - ezamiyyə xərcləri | 54 | | |
| Ç.2.3. | - nəqliyyat xidmətləri haqqının ödənilməsi | 55 | | |
| Ç.2.4. | - kommunal və kommunikasiya xidmətlərinin ödənilməsi | 56 | | |
| Ç.2.5. | - istehlak mallarının və materiallaının alınması | 57 | | |
| Ç.2.6. | - sair xidmətlərin haqqının ödənilməsi | 58 | | |
| Ç.3. | - faizlər üzrə ödənişlər | 59 | | |
| Ç.4. | - subsidiyalar və cari transferlər | 60 | | |
| Ç.5. | - qrantlar və digər ödənişlər | 61 | | |
| Ç.6. | - təqaüdlər və sosial müavinətlər | 62 | | |
| Ç.7. | - digər xərclər | 63 | | |
| Ç.7.1. | *ondan:* - əsaslı xərclər | 64 | | |
| Ç.8. | - qeyri-maliyyə aktivlərinin alınması | 65 | | |
| Ç.9. | - maliyyə aktivləri üzrə əməliyyatlar | 66 | | |
| Ç.10. | - öhdəliklər üzrə maliyyə əməliyyatları | 67 | | |

____________________________________ ____________________________

İcraçının vəzifəsi, soyadı, tel. nömrəsi Rəhbərin soyadı, imzası

“____” _______________ 201 il

*3. Büdcələrarası və dövlət hakimiyyəti orqanları ilə münasibətlər*

Azərbaycanda büdcələrarası münasibətlərin yaranması, qurulması və tənzimlənməsinin hüquqi əsasları "Büdcə sistemi haqqında" Azərbaycan Respublikasının Qanununda əks olunur. Büdcələrarası münasibətlər – müvafiq büdcələrin formalaşması və icrası ilə əlaqədar Azərbaycan Respublikası dövlət büdcəsinin Naxçıvan Muxtar Respublikasının büdcəsi ilə yerli büdcələrlə qarşılıqlı əlaqəsini ifadə edir. Belə ki, Qanuna əsasən büdcə sisteminin vahidliyi

- tənzimləyici mədaxil mənbələrindən istifadə etmək,
- məqsədli büdcə fondları yaratmaq,
- maliyyə ehtiyatlarını müxtəlif səviyyəli büdcələr arasında bölüşdürmək vasitəsi ilə büdcələrin qarşılıqlı əlaqəsinə əsaslanır.

Başqa sözlə büdcələrarası münasibətlər maliyyə resurslarının büdcələr arasında yenidən bölgüsü prosesində əmələ gələn iqtisadi münasibətləri ifadə edir.

Müxtəlif səviyyəli büdcələrin maliyyə resurslarını yalnız təhkim edilmiş gəlirlər hesabına təmin etmək əksər hallarda mümkün olmur. Məhz buna görə də yerli büdcələr ümum büdcə gəlirlərinin bir hissəsinin büdcələr arasında yenidən bölüşdürülməsi hesabına tamamlanmış olur. Deməli büdcələrarası münasibətlər maliyyə resurslarının büdcələr arasında yenidən bölgüsü prosesində əmələ gələn iqtisadi ( pul ) münasibətləri ifadə edir.

"Büdcə sistemi haqqında" AR – nın qanununa əsasən Azərbaycan Respublikasının dövlət büdcəsinin Naxçıvan Muxtar Respublikasının büdcəsi və yerli büdcələrlə qarşılıqlı əlaqəsi gəlir mənbələrinin bölüşdürülməsi vasitəsilə həyata keçirilir. Hər bir büdcənin xərclərinin təmin edilməsi üçün müvafiq gəlirləri olmalıdır. Ona görə də gəlirlərin büdcələr arasında bölgüsünün məqsədi büdcələrin müvafiq xərclərini təmin etməkdir. Qanunun Dövlət büdcəsi ilə Naxçıvan Muxtar Respublikasının büdcəsi və yerli büdcələr arasında qarşılıqlı əlaqə adlı 26-ci maddəsində qeyd olunur ki, Naxçıvan Muxtar Respublikasının büdcəsi və yerli büdcələrlə dövlət büdcəsinin qarşılıqlı əlaqəsi gəlir mənbələrinin, gəlirlərin dotasiya, subvensiya və büdcə ssudaları şəklində bölüşdürülməsi vasitəsilə həyata keçirilir.

**Dotasiya** dövlət büdcəsindən yerli büdcələrə onların gəlir və xərclərini tənzimləmək məqsədilə əvəzsiz verilən maliyyə vəsaitidir. Bələdiyyələr xərclərinin öz gəlirləri ilə təmin olunmayan hissəsini,

yəni yerli büdcənin kəsirini dövlət büdcəsindən alınan dotasiya ilə örtə bilər. Dotasiyanın məbləğinin müəyyən edilməsində bələdiyyənin ərazisində yaşayan əhalinin sayı və ölkənin maliyyə ehtiyatlarının formalaşmasında onun xüsusi çəkisi nəzərə alınır.

**Subvensiya** məqsədli maliyyələşdirmənin həyata keçirilməsi üçün dövlət büdcəsindən yerli büdcələrə verilən, lakin həmin məqsəd üçün və ya müəyyən edilmiş müddətdə istifadə edilmədikdə geri qaytarılan maliyyə vəsaitiir.

**Subsidiya** dövlət büdcəsindən yerli büdcələrə əvəzsiz verilən maliyyə vəsaitidir. «Büdcə sistemi haqqında» Qanunun 32.2.2-ci maddəsində göstərilir ki, yerli sosial-iqtisadi inkişaf proqramlarını yerli büdcələrin vəsaiti hesabına maliyyələşdirmək mümkün olmadıqda dövlət büdcəsindən dotasiya və subvensiya ayrılır.

**Büdcə ssudası** – dövlət büdcəsindən yerli büdcələrə, eləcə də yerli büdcələrdən bələdiyyə təşkilatlarına qaytarılmaq şərti ilə il ərzində müəyyən müddətə verilən maliyyə vəsaitidir.

Dövlət büdcəsindən maliyyə yardımları almaq istəyən bələdiyyələr cari ilin may ayının 1-dək aşağıdakı sənədləri və məlumatları müvafiq icra hakimiyyəti orqanına təqdim edirlər:

- cari ilin gözlənilən və ötən ilin büdcəsinin faktiki nəticələri barədə arayış;
- növbəti büdcə ili üzrə yerli büdcələrin nəzərdə tutulan gəlirləri və xərcləri, dövlət büdcəsindən ayrılacaq dotasiyanın və digər maliyyə yardımlarının həcminin əsaslandırılması;
- ötən ildə yerli büdcənin icra vəziyyəti barədə auditor rəyi;
- müvafiq icra hakimiyyəti orqanının sorğusuna görə digər materiallar.

Yerli büdcələrin müstəqilliyinə dövlət zəmanət verir və onun öhdəliklərinə məsuliyyət daşımır. Dövlət zəmanəti aşağıdakılara əsaslanır:

- investisiya və pul-kredit siyasəti əsasında istehsal *və xidmət* sferasının inkişafına şərait yaratmaq;
- yerli sosial-iqtisadi inkişaf proqramlarını yerli büdcə gəlirləri hesabına maliyyələşdirmək mümkün olmadıqda, yerli büdcə kəsirini ödəmək üçün dövlət büdcəsinin imkanlarını nəzərə

alaraq əlavə gəlir mənbələrinin müəyyən edilməsi və ya dövlət büdcəsindən dotasiya və subvensiyaların ayrılması. Yerli sosial müdafiə, ekoloji, həmçinin iqtisadi və sosial inkişaf proqramlarının qəbul və icra edilməsi ilə bağlı layihələrin həyata keçirilməsi, həmçinin qanunvericilik və icra hakimiyyəti orqanları tərəfindən bələdiyyələrə həvalə edilən əlavə səlahiyyətlərin maliyyələşdirilməsi məqsədi ilə dövlət büdcəsindən yerli büdcələrə subvensiya ayrılması üçün müvafiq bələdiyyələrin və onların təmsil olunduqları milli assosiasiyaların cari il martın 15-dək verilən təklifləri müvafiq icra hakimiyyəti orqanı tərəfindən 30 gün müddətində öyrənilir, onların qəbul edilib-edilməməsi barədə aidiyyəti bələdiyyələrə məlumat verilir. İcrası üçün vəsait ayrılmasına razılıq verilmiş layihələrlə bağlı müvafiq maliyyə-iqtisadi əsaslandırmalarla birlikdə "Büdcə sistemi haqqında" Qanunun 11.14-cü maddəsi ilə müəyyən edilən sənədlər və məlumatlar mayın 1-dək bələdiyyələr tərəfindən müvafiq icra hakimiyyəti orqanına təqdim olunur. Dövlət büdcəsindən ayrılmış subvensiyalar bələdiyyələr tərəfindən təqdim edilmiş layihələrə uyğun olaraq, hər il fevralın 15-dək müvafiq icra hakimiyyəti orqanı tərəfindən bölünür.

- Qanunvericilik və icra hakimiyyəti orqanları bələdiyyələrə əlavə səlahiyyətlər həvalə etdikdə, onları bu səlahiyyətlərin həyata keçirilməsi üçün zəruri maliyyə vəsaiti ilə təmin edirlər
- İcra hakimiyyəti orqanlarının qəbul etdikləri qərarlar nəticəsində yerli büdcələrin gəlirlərinin azalması və ya xərclərinin artması baş verdikdə uyğun, azalma və ya artma məbləğləri bu qərarları qəbul edən orqanlar tərəfindən kompensasiya olunur.
- Bələdiyyə qanunvericiliklə nəzərdə tutulmuş qaydada yerli büdcənin icrasına dair məlumatı statistika orqanlarına təqdim edir.

Bələdiyyələrlə dövlət orqanları arasında münasibətlərin digər mühüm aspektini bələdiyyələr üzərində inzibati nəzarət təşkil edir. Yerli özünüidarə orqanları üzərində inzibati nəzarət yalnız Konstitusiya ilə və ya qanunla nəzərdə tutulmuş forma və hallarda həyata keçirilə bilər. Yerli özünüidarə orqanları üzərində hər hansı bir inzibati nəzarət bir qayda olaraq, yalnız qanunçuluğa və konstitusion prinsiplərə əməl olunmasının təmin edilməsi üçün nəzərdə tutula bilər. Bununla belə, inzibati nəzarət həmçinin yerli özünüidarə orqanlarının onlara verilmiş səlahiyyətləri necə yerinə yetirmələrinə yuxarıda duran hakimiyyət orqanlarının nəzarətini də əhatə edə bilər.

Ölkəmizdə bələdiyyələr üzərində inzibati nəzarəti Ədliyyə Nazirliyinin, Bələdiyyələrlə İş Mərkəzi həyata keçirir. İnzibati nəzarəetin qanunvericilik çərçivəsi "Bələdiyyələrin fəaliyyətinə inzibati

nəzarət haqqında” azərbaycan respublikasinin qanununda öz əksini tapıb. Bu qanuna görə Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarət - bələdiyyələr, bələdiyyə orqanları və onların vəzifəli şəxsləri (bundan sonra - "bələdiyyələr" adlandırılacaq) tərəfindən Azərbaycan Respublikasının Konstitusiyasına və qanunlarına, Azərbaycan Respublikası Prezidentinin fərmanlarına və Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarlarına (Naxçıvan Muxtar Respublikasında isə həm də Naxçıvan Muxtar Respublikasının Konstitusiyasına, qanunlarına və Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin qərarlarına) riayət edilməsinin təmin olunması, bələdiyyələr tərəfindən qanunvericiliyin pozulması hallarının aradan qaldırılması məqsədi ilə həyata keçirilən fəaliyyətdir.

Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarət yalnız qanunvericilikdə nəzərdə tutulmuş qaydada və hallarda, bələdiyyələr tərəfindən qanunçuluğa əməl olunması baxımından həyata keçirilir və bələdiyyələrin yerli əhəmiyyətli məsələləri qanun çərçivəsində müstəqil və sərbəst surətdə həll etmək hüququnu məhdudlaşdıra bilməz və İnzibati nəzarət həyata keçirilərkən bələdiyyələrin fəaliyyətinə edilən müdaxilə qanunda nəzərdə tutulan məqsədə mütənasib olmalıdır. Başqa sözlə Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarət yalnız qanunçuluğa əməl olunması baxımından həyata keçirilir. Bələdiyyələrin müvafiq komissiyaları və seçicilər bələdiyyələrin fəaliyyətinə inzibati nəzarətin həyata keçirilməsinə cəlb edilə bilərlər. Bələdiyyələrin fəaliyyətinin inzibati nəzarət qaydasında araşdırılmasının nəticələri bələdiyyə tərəfindən əhaliyə elan edilir və bələdiyyə binasının qarşısında xüsusi lövhələrdə yerləşdirilir.

İnzibati nəzarətin başlaması üçün bələdiyyələrin normativ aktlarının yuxarıda qeyd olunan normativ hüquqi aktlara zidd olması barədə kifayət qədər əsas olmalıdır. Dİgər tərəfdən hüquqlarına və ya qanuni mənafelərinə bələdiyyə tərəfindən zərər vurulduğunu iddia edən fiziki və ya hüquqi şəxsin, yaxud dövlət orqanının müraciəti daxil olması da inzibati nəzarətin başlaması üçün əsas hesab olunur. Qeyd olunan birinci əsas üzrə inzibati nəzarətin həyata keçirilməsini təmin etmək məqsədi ilə bələdiyyələr qəbul etdikləri aktların bir surətini həmin aktların qəbul edildiyi andan 15 gündən gec olmayaraq inzibati nəzarəti həyata keçirən orqana, yəni Bələdiyyələrlə iş Mərkəzinı göndərməlidirlər. Bu aktlar aşağıdalkılardır:

- bələdiyyələrin normativ aktları;
- dövlət büdcəsindən ayrılan maliyyə vəsaitinin istifadəsi barədə aktlar;

- bələdiyyə mülkiyyətində olan əmlaka dair mülkiyyət hüququnun həyata keçirilməsi barədə aktlar;
- birdəfəlik yerli vergilərin və rüsumların tətbiqi barədə aktlar;
- yerli rəy sorğusunun nəticələrini əks etdirən qərarlar.
- bələdiyyələr üçün xərclər və maliyyə öhdəlikləri doğuran aktlar.
- bələdiyyələrin birləşməsi və ayrılması ilə bağlı keçirilmiş yığıncağın (yığıncaqların) nəticələrinin rəsmiləşdirilməsinə dair qərarlar.
- qanunçuluq prinsiplərinə riayət olunmasının təmin edilməsi ilə bağlı bələdiyyənin fəaliyyətinə inzibati nəzarəti həyata keçirən orqanın təklif və tövsiyələrinin bələdiyyələrin iclaslarında müzakirəsi barədə qərarlar

Vətəndaşlar və ya dövlət orqanları da hüquqlarının və ya qanuni mənafelərinin pozulduğu, yaxud ona bu hüquqpozmanın məlum olduğu gündən 6 ay ərzində inzibati nəzarəti həyata keçirən orqana şikayət ərizəsi ilə verilə bilərlər. Əlavə məlumata ehtiyac olmadıqda müraciətə 15 gün ərzində baxılır. Müraciətə makismal baxılma müddəti əsaslandırmaq və ərizəçini məlumatlandıqmaq şərti ilə 60 gündür. İnzibati nəzarəti həyata keçirən orqan daxil olmuş müraciətlə bağlı ya icraata başlayır və qaxud da müraciətə baxmaqdan imtina edir və bu barədə müvafiq şəxsə və ya orqana əsaslandırılmış yazılı cavab göndərir.

İnzibati nəzarəti həyata keçirən orqan daxil olmuş müraciətə baxarkən həmin müraciətdə göstərilmiş və mübahisə doğuran bələdiyyə aktının, habelə əlavə sənədlərin və ya məlumatların ona göndərilməsi barədə müvafiq bələdiyyəyə müraciət edə bilər. Bələdiyyə bu sənədləri və ya məlumatları həmin sorğunu aldığı andan 15 gün ərzində inzibati nəzarəti həyata keçirən orqana təqdim etməlidir. İnzibati nəzarəti həyata keçirən orqan ona təqdim olunmuş müraciətə baxarkən zəruri hallarda yerində araşdırmalar apara bilər. Bu cür araşdırmalar aparılmasına bələdiyyələr tərəfindən maneə törədilməməlidir. İnzibati nəzarəti həyata keçirən orqan müraciətin araşdırılması nəticəsində bələdiyyənin fəaliyyətinin qanuna zidd olduğunu aşkar etdikdə, həmin fəaliyyətin 15 gün müddətində dayandırılması və vurulmuş ziyanın aradan qaldırılması barədə müvafiq bələdiyyəyə müraciət edir. İnzibati nəzarəti həyata keçirən orqan daxil olmuş müraciətin araşdırılması nəticəsində bələdiyyə

aktının normativ hüquqi aktlara zidd olduğunu aşkar etdikdə, həmin aktın 15 gün ərzində dəyişdirilməsi və ya ləğv edilməsi barədə müvafiq bələdiyyəyə müraciət edir. Müraciət müəyyən olunmuş müddət ərzində müvafiq bələdiyyə tərəfindən yerinə yetirilmədikdə, o, 15 gün ərzində məhkəməyə müraciət edir və müvafiq bələdiyyəyə dərhal məlumat verir.

Hər hansı bələdiyyə aktı və ya bələdiyyənin fəaliyyəti dövlət mənafelərinə və ya ictimai mənafelərə ağır ziyan vura bilərsə, inzibati nəzarəti həyata keçirən orqan müvafiq bələdiyyəyə dərhal həmin aktın ləğv edilməsini və ya həmin fəaliyyətə xitam verilməsini təklif edir. Bu təklif 3 gün müddətində yerinə yetirilmədikdə, inzibati nəzarəti həyata keçirən orqan dərhal məhkəməyə müraciət edir və həmin iddianın təmin edilməsi ilə bağlı qanunvericilikdə müəyyən edilmiş qaydada müvafiq qərar çıxarılmasını məhkəmədən xahiş edir. Bələdiyyənin fəaliyyətində cinayət aşkar etdikdə, inzibati nəzarəti həyata keçirən orqan müvafiq tədbirlər görülməsi üçün səlahiyyətli dövlət orqanına müraciət edə bilər.

**Bələdiyyə Büdcəsinin planlaşdırılması**

**1. Yerli büdcənin planlaşdırılması və tərtibi**

Bələdiyyə büdcəinin vəsaitləri ictimai xarakter daşıyır. Çünkü bu vəsaitlər bilavasitə həmin ərazidə yaşayan və işləyən əhalinin ödədiyi vergilər hesabına, eləcə də müəssisə təşkilatların vergilərindən və digər ödəmələrdən ibarət olur. Digər tərəfdən həmin vəsaitlər yerli əhali üçün əhəmiyyətli olan yerli ictimai işlərin yerinə yetirilməsinə sərf olunmalıdır. Yerli büdcənin tərtibi məhdud olan resursların ən səmərəli istifadəsi üçün mühüm əhəmiyyət daşıyır. Düzgün tərtib olunan büdcə ərazi üzrə proritetlərin düzgün müəyyənləşdirilməsini və büdcə vəsaitlərinin əhalinin ən vacib problemlərinə istiqamətlənməsini təmin edir.

Büdcə layihəsinin tərtibi, büdcənin müzakirəsi və təsdiqi, büdcənin icrası və onun icrası haqqında hesabatın hazırlanaraq təsdiq edilməsi büdcə prosesinin mərhələlərini təşkil edir. Bu mərhələlərin hər biri özlüyündə müxtəlif fəaliyyətləri ehtiva edir.

Büdcə prosesinin təsvirini sxematik olaraq aşağıdakı şəkildə görmək mümkündür.

**Şəkil 1. Büdcə prosesinin mərhələləri**




Göründüyü kimi büdcə prosesi bir-biri ilə sıx əlaqəli bir çox ardıcıl fəaliyyətlərin vəhdətini təşkil edir. Büdcə prosesi büdcə layihəsinin tərtibinə başlanılmasından onun icrası haqqında hesabatın təsdiq olunmasına qədər keçən dövrü əhatə edir. Bu müddət əsasən bir il təşkil edir. Bu müddət uzun dövrü əhatə etdiyi üçün onun mərhələləri reqlamentləşdirilir və ilin sonuna qədər yekunlaşdırılır. Büdcə prosesinin mərhələləri üzrə zaman bölgüsünün aparılması büdcə təqvimi adlandırılır. Məsələn Büdcə sistemi haqqında qanuna əsasən Azərbaycanda dövlət büdcəsi üzrə büdcə təqvimini aşağıdakı cədvəldə görmək mümkündür:

**Cədvəl 4. Azərbaycanda dövlət büdcəsi üzrə büdcə təqvimi**

| Müddət | Büdcə prosesi |
|---|---|
| Yanvar ayının üçüncü on günlüyü ərzində | Növbəti il üçün büdcə prosesinə başlanılması |
| Növbəti büdcə ilinə 11 ay qalmış | Növbəti il üçün dövlət büdcəsi layihəsinin tərtibi prosesinə başlanılması |
| Aprel ayının 15-dək | Dövlət büdcəsinin və investisiya proqramının ilkin layihəsinin Nazirlər Kabinetinə təqdim olunması |
| May ayının 1-dək | Dövlət büdcəsinin və investisiya proqramının ilkin və növbəti üç il üçün icmal büdcə göstəricilərinin tərtib olunması |
| Iyul-avqust aylarında | dövlət büdcəsinin gəlirlərinin icrasını təmin edən orqanlarla və büdcə təşkilatları ilə büdcə layihələri üzrə müzakirələrin aparılması |
| Sentyabr ayının 15-dək | Növbəti büdcə ili üzrə dövlət büdcəsinin layihəsinin və sonrakı üç il üçün icmal büdcənin göstəricilərinin Nazirlər Kabinetinə təqdim edilməsi. |
| Sentyabr ayının 25-dək | dövlət büdcəsinin layihəsi və sonrakı üç il üçün icmal büdcənin göstəricilərinin Prezidentə təqdim olunması |
| Oktyabr ayının 15-dən gec olmayaraq | dövlət büdcəsi haqqında qanun layihəsinin ona əlavə edilmiş digər sənədlərlə birlikdə Azərbaycan Respublikasının Milli Məclisinin müzakirəsinə və təsdiqinə təqdim edilir. |

| | |
|---|---|
| **Dekabr ayının 20-dən gec olmayaraq** | **Dövlət büdcəsinin layihəsinin Azərbaycan Respublikasının Milli Məclisində təsdiq edilməsi** |
| **Yanvarın 1 –dən Dekabrın 31 - dək** | **Büdcənin icrası** |
| **Hesabat ayından sonrakı ayın 25-dək** | **Dövlət büdcəsinin icrası barədə aylıq hesabatın müvafiq icra hakimiyyəti orqanlarına təqdim edilməsi** |
| **Növbəti rübün birinci ayının sonunadək** | **Dövlət büdcəsinin icrası barədə rüblük hesabatın Azərbaycan Respublikasının Milli Məclisinə və müvafiq icra hakimiyyəti orqanlarına təqdim olunması** |
| **Növbəti ilin may ayının 15-dən gec olmayaraq** | **Dövlət büdcəsinin icrası barədə illik hesabatın və müvafiq qanun layihəsinin təsdiq olunmaq üçün müvafiq icra hakimiyyəti orqanı tərəfindən Azərbaycan Respublikasının Milli Məclisinə təqdim edilməsi** |

Monitorinqin aparılması və hesabatların hazırlanması isə əsasən büdcə ili qurtardıqdan sonra icra olunur. Büdcə prosesinin məqsədi qərar vericilər üçün bələdiyyə xidmətləri haqqında dolğun qərarların verilməsi, bələdiyyə əmlakından səmərəli istifadə və bələdiyyənin kapital fondunun formalaşdırılmasıdır. Digər tərfədən isə büdcə prosesi vətəndaşların bələdiyyə fəaliyyətləri haqqında məlumatlılığının və idarəetmədə iştirakçılığının artmasına yol açır.

Bələdiyyələrin maliyyəsinin əsasları haqqında Azərbaycan Respublikasının Qanununa əsasən Yerli büdcənin layihəsi bələdiyyə ərazisində fəaliyyət göstərən bələdiyyə müəssisələrinin və digər hüquqi şəxslərin, habelə fiziki şəxslərin təsərrüfat fəaliyyətinin qiymətləndirilməsi, sosial-iqtisadi proqnozlar və məqsədli proqramlar əsasında formalaşır. Dövlət büdcəsindən dotasiya almaq nəzərdə tutulduqda yerli büdcənin layihəsi qanunla müəyyən edilən sənədlər və məlumatla birgə may ayının 1-dək Maliyyə Nazirliyinə təqdim olunur. Həmin sənədlər aşağıdakılardan ibarətdir:

✓ cari ilin gözlənilən və ötən ilin büdcəsinin faktiki nəticələri barədə arayış;

- ✓ növbəti büdcə ili üzrə yerli büdcələrin nəzərdə tutulan gəlirləri və xərcləri, dövlət büdcəsindən ayrılacaq dotasiyanın və digər maliyyə yardımlarının həcminin əsaslandırılması;
- ✓ ötən ildə yerli büdcənin icra vəziyyəti barədə auditor rəyi;
- ✓ Maliyyə Nazirliyinin sorğusuna görə digər materiallar.

Yerli büdcə layihəsinin tərtibi prosesi növbəti büdcə ilinə 11 ay qalmış başlanır və büdcə layihəsinin bələdiyyə iclasına təqdim edildiyi günədək davam edir. Yerli büdcə layihəsinin tərtibinə və bələdiyyə iclasına təqdim edilməsinə bələdiyyə sədri cavabdehdir və bu məqsədlə o, bələdiyyənin daimi və başqa komissiyalarını, bələdiyyə qulluqçularını və mütəxəssisləri cəlb edə bilər.

Aşağıda A bələdiyyəsi üçün nümunəvi büdcə təqvimi verilmişdir.

**Cədvəl 5. A bələdiyyəsinin 2016 cı il üçün büdcə təqvimi**

| **Müddət** | **Fəaliyyət** |
|---|---|
| **Fevral, 2015** | **Büdcə prosesinin açıq elan edilməsi** |
| **Fevral 2015** | **Hər şöbə və idarənin növbəti il üçün cari xərclərinin hesablanması** |
| **Fevral – Mart 2015** | **Büdcə prioritetlərinin hazırlanması üçün əhali qrupları, QHT lər, ictimai birliklər və s. vətəndaş cəmiyyəti ünsürləri ilə görüşlərin, müzakirələrin və sorğuların başlanması və aparılması** |
| **Aprel 2015** | **Bələdiyyə üzrə ümumi cari xərclərin müəyyənləşdirilmıəsi və büdcə komissiyasına təqdim olunması** |
| **May 2015** | **Bələdiyyə xidmətlərindən istifadəyə görə və ya qanunvericilikdə nəzərdə tutulan vergi və qeyri vergi mənbələri üzrə rüsum və ödənişlərin dərəcələrinin müəyyənləşdirilməsi.** |
| **İyun 2015** | **Bütün mənbələr üzrə (vergi, qeyri vergi, əmlak və torpaq satışı və icarəsi dotasiya, subsidiya və s.) ehtimal olunan** |

| | |
|---|---|
| | **gəlirlərin hesablanması.** |
| **İyul 2015** | **Əhali ilə aparılan sorğuların və görüşlərin təhlilin nəticələrini nəzərə almaqla investisiya xərclərinin müəyyən olunması** |
| **Avqust, 2015** | **Büdcə layihəsinin komissiyada ilkin müzakirəsi və lazımi dəyişikliklərin edilməsi** |
| **Sentyabr - Oktyabr, 2015** | **Büdcə layihəsinin ictimaiyyətə elan olunması və ictimai dinləmələrin keçirilməsi** |
| **Noyabr, 2015** | **Büdcə layihəsinin ictimai dinləmələr əsasında büdcə komissiyasında sonuncu müzakirəsi və lazımi dəyişikliklər edilərək bələdiyyə sədrinə təqdim edilməsi** |
| **Dekabr, 2015** | **Büdcənin Bələdiyyə Sədri tərəfindən Bələdiyyə Məclisinə təqdim edilməsi, müzakirəsi və təsdiqi** |
| **Yanvar 1, 2016** | **Büdcənin icrasına başlanılması** |

Bələdiyyə büdcəsini lahiyyəsini hazırlanarkən əsas məqsədlər aşağıdakılardan ibarət olur:

- Yerli büdcənin bələdiyyə ərazisində yaşayanların həyat səviyyəsininin yüksəldilməsinə fəal təsirinin təmini
  - *Bələdiyyələrin əsas funksiyası yerli əhəmiyyətli problemlərin həlli və nəticə etibarı ilə seçicilərin həyat səviyyəsinin yüksəldiməsidir. Bu baxımdan yerli ehtiyacların əhalinin yaxından iştirakı ilə düzgün və vaxtında təsbit olunması və fəaliyyətində bu istiqamətdə prioritetləşdirilməsi mühüm əhəmiyyət daşıyır.*
- Bələdiyyələrin sosial iqtisadi inkişaf proqramları ilə maliyyə və digər resursların əlaqələndirilməsinin təmini;
  - *Bələdiyyələrin sosial iqtisadi inkişaf proqramları bələdiyyənin uzun müddətli strateji planlarına uyğun hazırlanması və büdcə göstəriciləri ilə uyğunluq təşkil etməlidir. Mövcud gəlir potensialı ilə icrası mümkün olmayan kompleks proqramlar işlənib hazırlanması əhəmiyyətsiz olur.*
- Büdcənin gəlir potensialından maksimum istifadə

- *Vergi və qeyri-vergi mənbələri üzrə potensial gəlirlərin büdcəyə maksimum dərəcədə cəlb olunması bələdiyyələrin maliyyə tutumluluğu və sərbəstliyi baxımdan mühümdür. Qeyd olunan mənbələr üzrə yığımların yaxşılaşdırılması bilavasitə bələdiyyələrin şəffaf fəaliyyəti və xərc istiqamətləri haqqında vergi ödəyicilərini mütəmadi məlumatlandırmasından asılıdr.*

- Büdcəyə cəlb olunacaq əlavə gəlir mənbələrinin araşdırılması (beynəlxalq təşkilatlar və hökümətin konkret lahiyyələr üzrə transferləri və s.)
  - *Mövcud qanunvericiliyə əsasən bələdiyyələrə kommmersiya banklarından kredit ala bilərlər. Lakin borc bazarına çıxa bilmək üçün bücdə xərclərinin və gəlirlərinin səmərəli idarəolunması və mütəmadi maliyyə hesabatlarının hazırlanmasını zəruri edir. Bu hesabatlar bələdiyyələrin kredit ödəmə gücünün indikatorlarıdır. Digər tərəfdən ərazi üzrə konkret layihələrin həyata keçirilməsi üçün dövlət büdcəsinə müraciət nəzərdən keçirilməlidir .*
- Prioritet istiqamətlər üzrə müvafiq xərclərin müəyyənləşdirilməsi
  - Büdcə xərclərin yerli rəy sorğusu, vətəndaşın rəy kartı, əhali qrupları ilə birbaşa görüşlər, məhəllə komitələrinin hesabatları və s kimi iştirakçılıq üsullarından istifadə etməklə əhalinin maraqlarına uyğun istiqamətlərə yönləndirilməsi də büdcə vəsaitlərinin kəmiyyət və keyfiyyətcə artımına xidmət edir.
- Büdcə vəsaitinin maksimum həddə səmərəli istifadəsi
  - Bu öz növbəsində büdcə xərclərinin periodik olaraq büdcə ili üzrə planlanan istiqamətdə və həcmdə icra olunmasına nəzarəti tələb edir.

Yerli büdcənin layihəsi bələdiyyələrin iqtisadi-maliyyə potensialı, bələdiyyə ərazisində fəaliyyət göstərən bələdiyyə müəssisələri, digər hüquqi şəxslər, fiziki şəxslərin təsərrüfat fəaliyyətinin qiymətləndirilməsi, sosial iqtisadi proqnozlar və məqsədli proqramlar əsasında formalaşır. Bələdiyyə təşkilatları, komissiyaları, eləcədə bələdiyyə ərazisində yaşayan əhali ilə müzakirlərə aparaılır, bir sıra təkliflər irəli sürülür və bunlar arasında qiymətləndirmə aparılaraq büdcə haqqında qərarlar qəbul edilir. Bu qərarlar verilərkən dövlətin sosial iqtisadi inkişafı, iqtisadi inkişaf perespektivləri, infıyasya və işsizlik səviyyələri, sosial müdafiə və sosial yardıma ehtiyacı olanların sayı, müvafiq dövlət

proqramları, eləcədə əvvələr təsdiq olunmuş büdcələrin həyata keçirilməsi və və cari büdcənin icrası məlumatları və s. bu kimi məsələlər diqqətə alınır.

**2. Yeri büdcənin müzakirəsi və təsdiqi**

Büdcənin tərtibindən sonrakı mərhələ onun geniş müzakirəsi və təsdiqi mərhələsidir. Yerli büdcə layəhsini  müzakirəsi və təsdiqi qaydası qanunvericiliyə uyğun olaraq bələdiyyənin nizamnaməsi ilə müəyyən olunur. Büdcə tərtib olunduqdan sonra bələdiyyələrin ayrı ayrı komissiyalarında və ya hamının iştirakı ilə ümumi iclasda müzakirə oluna bilər.

Büdcənin müzakirəsi maliyyə ili üzrə bələdiyyə büdcəsinin proqnoz gəlir və xərclərini müzakirəsini əhatə edir. Potensial büdcənin gəlir mənbələrinin hər biri üzrə (vergi növləri üzrə, qeyri vergi növləri üzrə, bələdiyyə fəaliyyətindən gəlirlər, torpaq və əmlak satışı və icarəsi üzrə gəlirlər, ianələr, dövlət yardımları və s.) ayrı ayrılıqda ehtimal olunan gəlir göstəriciləri müzakirə olunur, əvvəlki illərə görə artım və ya azalmanın müşahidəsi aparılır və səbəbləri araşdırılır, büdcə daxilolmalarında ayrı ayrı mənbələrin xüsusi çəkisi öyrənilir.

Digər tərəfdən büdcə xərlərinin strukturu və xərc istiqamətləri də ətraflı müzakirə olunur. Misal üçün, əmək haqqları, abadlaşdırma xidmətləri, inzibati binaların cari təmiri, sosial-mədəni və məişət təyinatlı obyektlərin əsaslı təmiri, yolların təmiri, sosial yönümlü yardımlar və s. istiqamətlər üzrə ayrı ayrılıqda nəzərdə tutulan xərclərin həcmi müzakirə olunur. Növbəti il üzrə xərclərin də artım və azalma tendensiyaları təhlil edilərək səbəbləri müzakirə olunur.

Qanunvericiliyə əsasən bələdiyyələr öz səlahiyyətləri müddətində daimi və başqa komissiyalar yarada bilərlər. Bu komissiyalar yerli büdcə, yeri sosial və yerli iqtisadi məsələlər, yerli ekologiya və onların fəaliyyətinə aid hüquq məsələləri ilə bağlı qurula bilər. Bu komissiyalar müvafiq olaraq yerli büdcə məsələləri daimi komissiyası,  yerli sosial məsələlər daimi komissiyası, yerli ekologiya məsələləri daimi komissiyası, yerli iqtisadi inkişaf məsələləri daimi komissiyası və hüquq məsələləri daimi komissiyalarıdır. Büdcənin hazırlanması və  müzakirəsinin təşkili bilavasitə  büdcə məsələləri daimi komissiyasının üzərinə düşür. Komissiya:

- *yerli vergilərə və ödənişlərə, yerli büdcəyə aid qərar layihələrini hazırlayır və ya təqdim olunmuş qərar layihələrinə dair rəy verir;*

- *yerli büdcəyə nəzarətlə bağlı məsələlərlə baxır və bələdiyyəyə təkliflər verir;*

- *yerli büdcə layihəsinə dair başqa daimi komissiyaların təkliflərinə baxır və bu təkliflər barəsində rəy hazırlayır;*

- *yerli büdcənin icrası ilə bağlı hesabatlara dair rəy hazırlayır;*

- *bələdiyyə və onun icra aparatı üçün təkliflər hazırlayır.*

Büdcə məsələləri daimi komissiyası onun müzakirəsinə verilmiş məsələlərin başqa daimi komissiyaların da səlahiyyətinə aid olduğunu müəyyən etdikdə, yaxud digər daimi komissiyaların büdcə məsələlərə dair rəy verməsində zərurət olduqda, bu barədə bələdiyyənin sədrinə təklif verə bilər. Bələdiyyələrin digər komissiyaları isə aşağıdakı səlahiyyətlərə malikdirlər:

Yerli sosial məsələlər daimi komissiyası:

- *yerli sosial müdafiə və sosial inkişaf, o cümlədən əmək, məşğulluq, sosial təminat və digər yerli sosial məsələlər də daxil olmaqla, proqramların layihələrini, arayışlar, qərar layihələri hazırlayır və ya təqdim olunmuş yerli sosial müdafiə və sosial inkişaf proqramların layihələrinə və digər qərar layihələrinə dair rəy verir;*
- *bələdiyyə və onun icra aparatı üçün təkliflər hazırlayır.*

Yerli ekologiya məsələləri daimi komissiyası:

- *yerli ekoloji proqramların layihələrini, arayışlar, qərar layihələri hazırlayır və ya təqdim olunmuş yerli ekoloji proqramları layihələrinə və qərar layihələrinə dair rəy verir;*
- *bələdiyyə və onun icra aparatı üçün təkliflər hazırlayır.*

Yerli iqtisadi inkişaf məsələləri daimi komissiyası:

- *yerli iqtisadi inkişaf proqramları layihələrini (o cümlədən bələdiyyə mülkiyyətinin (bələdiyyə torpaqları da daxil olmaqla) səmərəli istifadəsi, bələdiyyələrin təsərrüfat fəaliyyətinin təşkili də daxil olmaqla), arayışlar, qərar layihələrini hazırlayır və ya təqdim olunmuş yerli iqtisadi inkişaf proqramların layihələrinə və qərar layihələrinə dair rəy verir;*
- *bələdiyyə və onun icra aparatı üçün təkliflər hazırlayır.*

Hüquq məsələləri daimi komissiyası:

- *bələdiyyənin qərar layihələrinin Azərbaycan Respublikası Konstitusiyasına və qanunvericiliyinə uyğunluğu haqqında, bələdiyyə üzvlərinin səlahiyyətlərinin itirilməsi və ya onlara xitam verilməsi məsələlərinə, yerli rəy sorğusuna çıxarılan məsələlərə dair rəy verir;*
- *bələdiyyə və onun icra aparatı üçün təkliflər hazırlayır.*

Büdcə müzakirələrində şəffaflığı və iştirakçılığı təmin etmək vacib məsələdir. Bu baxımdan müzakirələrdə vətəndaşların, ərazidə mövcud olan ictima birliklərin, media qurumlarının iştirakına imkan yaradılmalı və büdcə müzakirələrinin keçiriləcəyi gün və yer haqqında əvvəlcədən məmulat verilməlidir. Müzakirələr zamanı qeyd olunan tərəfsaşların məqsədəuyğun fikir və təkliflərinin mümkün qədər nəzərə alınması təmin olunmalıdır.

Qanunvericiliyə əsasən növbəti büdcə ili üçün yerli büdcə haqqında qərar layihəsi müvafiq sənədlərlə birlikdə cari ilin oktyabr ayının 15-dən gec olmayaraq bələdiyyə iclasının müzakirəsinə və təsdiqinə təqdim edilir. Yerli büdcənin layihəsi bələdiyyə iclasına təqdim edildiyi tarixdən 10 gün ərzində yerli əhalinin onunla tanış olması məqsədi ilə dərc edilir. Növbəti büdcə ili üzrə yerli büdcənin layihəsi bələdiyyənin qərarı ilə cari ilin dekabr ayının 25-dən gec olmayaraq təsdiq edilir.

### 3. Yerli büdcənin icrası, büdcənin tarazlaşdırılması

Büdcənin kassa icrası bələdiyyə ərazisində büdcə vəsaitlərinin yığılması, saxlanılması və təyinatı üzrə ayrılması, eləcə də uçot və hesabatının aparılmasıdır. Yerli büdcənin kassa icrası bələdiyyənin müraciəti əsasında dövlət xəzinədarlığı vasitəsi ilə və ya qanunvericiliklə müəyyən edilmiş digər üsullarla həyata keçirilə bilər. başa  Bələdiyyələrin gəlir və xərc əməliyyatları onların müraciətləri əsasında dövlət xəzinədarlığı vasitəsi ilə həyata keçirildikdə uçot-hesabatın təşkili üzrə texniki xidməti dövlət xəzinədarlığı təmin edir. Bələdiyyələrin maliyyə əməliyyatları dövlət xəzinədarlığı vasitəsilə həyata keçirilmədiyi hallarda belə əməliyyatlar üzrə ödəmə və uçot-hesabat işlərinin aparılması qaydaları qanunvericiliklə müəyyən edilir.

Bələdiyyələr büdcə ilindən sonrakı ilin birinci iş günü gəlir və xərclər üzrə əməliyyatların dövlət xəzinədarlığı vasitəsilə həyata keçirilməsindən imtina edə bilərlər. Yerli büdcələrin icrası prosesində bələdiyyələr büdcənin dəqiqləşdirilməsi barədə qərar verə və dövlət büdcəsindən alınmış məqsədli vəsait istisna olmaqla, mədaxil və məxaric maddələrində büdcə təsnifatı üzrə təsdiq edilmiş təxsisat həddində dəyişikliklər apara bilərlər. Yerli büdcələrin icrası zamanı qəbul edilmiş öhdəliklər üzrə

əməliyyatlar büdcə ili qurtardıqda başa çatır və istifadə olunmayan vəsait bələdiyyələrin sərəncamında qalır. Bələdiyyələr maliyyə əməliyyatları apararkən bütün maliyyə qaydalarına riayət edilməsinə və maliyyə vəsaitindən təyinatı üzrə istifadə olunmasına görə məsuliyyət daşıyırlar. Yerli büdcənin icrası haqqında illik hesabat bələdiyyələrin nizamnaməsində müəyyən edilmiş qaydada təsdiq edilir və bu barədə bələdiyyənin ərazisində yaşayan əhaliyə məlumat verilir.

Yerli büdcələrin icrası prosesində mədaxil mənbələri üzrə daxil olan vəsait azalarsa və bu, büdcə kəsrinin son həddini aşmasına səbəb olarsa, müdafiə olunan xərc maddələri istisna olmaqla, digər xərclərə sekvestr tətbiq edilir. Sekvestr yerli büdcələrin gəlirləri yerinə yetirilmədikdə, müdafiə olunmuş xərc maddələri istisna olmaqla, büdcə ilinin qalan ayları üzrə xərclərin müəyyən olunmuş qaydada ixtisarıdır. Yerli büdcənin sekvestr qaydaları bələdiyyənin nizamnaməsində və yaxud da büdcə prossesi haqqında əsasnamədə göstərilməlidir.

**Bələdiyyə büdcəsində şəffaflığın təmini**

**1. Şəffaf büdcə siyasətinin əhəmiyyəti**

Büdəcə bələddiyyələrin ərazi üzrə prioritetlərinin program təsviridir. Büdcənin prosesinin şəffaflaşdırılması və ictimai müzakirəyə açılması əhalinin resurs bölgüsündə və yerli siyasətin formalaşmasında iştirakını təmin edir. Büdcə şəffaflığı,büdcənin tərtib olunmasında, icrasında və nəticələrinin təhlilində ictimai rəyin maksimum dərəcədə nəzərə alınmasını tələb edir. Şəffaf, əlçatan və səlil olmayan büdcənin təhlil mümkün olmur. Belə olan halda büdcənin icrasının monitorinqi və nəticələrinin qiymətləndirilməsi mümkün olmur. Büdcədə yer alan məlumatların kifayət qədər sadə və başadüşülən olması və vaxtında ictimailəşdirilməsi, əhalinin hər təbəqəsində büdcə məlumatlılığının olması və büdcənin formalaşmasına töhfə verə bilməsi baxımından vacibdir.

❖ **Bəs büdcə şəffaflığının səmərəliliyi nədən ibarətdir?**

- vətəndaş ödədiyi vergilərin hara xərcləndiyini görür;
- büdcənin ictimai müzakirəsinə imkanlar yaranır;
- büdcəni tərtib edən və icra edən məmurların məsuliyyəti artır;
- xərcləri ictimai nəzarətdə saxlamaq imkanları yaranır;

- vətəndaşların bələdiyyəyə inamı və etibarı artır;
- ictimai birliklərin və vətəndaş cəmiyyətinin nəzarət imkanları yaranır;
- müstəqil ekspertlərin büdcə prosesinə cəlb edilməsi imkanları yaranır;
- vətəndaşı razı salan büdcə onu vergi ödəməyə təşviq edir;
- vətəndaş yaşadığı ərazidə baş verən sosial-iqtisadi hadisələrə biganə qalmır;
- əhalinin şəxsi ianələri əsasında konkret layihələrin icrası imkanı yaranır;
- investorların marağı və inamı artır;
- korrupsiya imkanları zəifləyir;

**Lakin Büdcənin şəffaflığından səmərəli istifadə üçün bir sıra amillərin mövcudluğu şərtdir. Bunları aşağıdakılardır:**

❖ bələdiyyə ərazisində fəlaiyyət göstərən ictimai birliklərin imkan və bacarıqları;

❖ büdcə layihəsi üzrə ictimai müzakirələrin mütəmadi olaraq keçirilməsi;

❖ büdcə siyasəti prioritetlərinin müəyyənləşdirilməsində ictimai qurumların iştirakı;

❖ büdcənin müzakirə və Qəbulunun KİV-lərdə, sosial mediada və s. işıqlandırılması;

Ölkəmizdə də “Bələdiyyələrin statusu haqqında” Azərbaycan Respublikası Qanunda bələdiyyələrin öz fəaliyyətlərini açıqlıq prinsipi əsasında həyata keçirməsini nəzərdə tutan maddələr var. Qanunun 15-ci maddəsinə əsasən bələdiyyə üzvləri 6 ayda bir dəfədən az olmayaraq seçicilərinə hesabat verməlidirlər. Bunlardan əlavə, elə həmin Qanunda qeyd edilir ki, bələdiyyələr informasiyanı açıqlamaq, onu sərbəst və maneəsiz və hamı üçün bərabər qaydada əldə olunmasına təminat yaratmalıdır. Qanunun 30-cu maddəsində göstərilir ki, bələdiyyələr, bələdiyyə orqanları və onların vəzifəli şəxsləri vətəndaşların müraciətlərinə mahiyyəti üzrə bir ay ərzində cavab verməlidirlər. Azərbaycan qanunvericiliyində vətəndaşların məlumatlı olmasını təmin etməyin zərurətini təsbit edən əsas qanunlardan biri də 2005-ci ildə qəbul olunmuş “İnformasiya əldə etmək haqqında” Azərbaycan Respublikasının Qanunudur. Bu Qanuna əsasən, bələdiyyələr “informasiya sahibləri”dirlər və informasiyanı toplamaq və qoruyub saxlamaq, məlumatın asanlıqla əldə oluna bilməsini təmin etmək, eyni zamanda məlumatı ictimayyətə çatdırmaq vəzifəsi daşıyırlar.

Qeyd olunan Qanunun 29-cu maddəsində büdcə məlumatları, bələdiyyələrin fəaliyyətləri ilə bağlı hazırlanmış təlimatlar, hesabatlar, ştat cədvəlləri, həmin idarədə çalışan vəzifəli çəxslər haqqında dolğun məlumatlar (adı, soyadı, telefonu, ünvanı, təhsili, ixtisası və s.), dövlət və bələdiyyə satınalmalarının şərtləri, nəticəsi, eləcə də dövlət və bələdiyyə əmlakının satılması, onun üzərində əmlak hüquqlarının dəyişməsi barədə məlumatlar, bələdiyyə orqanları rəhbərlərinin qəbul saatları barədə məlumatlar, bir sözlə qanunvericiliklə qadağan olunmayan bütün məlumatlar yayımlanmalıdır. Qanunun 30.1-ci bəndində məlumatların yayılması üsullarına toxunularaq bildirilir ki, ictimai məlumatlar internet informasiya ehtiyatlarında açıqlanmalıdır. Lakin eyni zamanda 30-cu maddənin sonrakı bəndlərində ictimai informasiyaların kütləvi informasiya vasitələrində, rəsmi nəşrlərdə, kitabxanalarda, kütləvi istifadəsi mümkün olan digər yerlərdə və qanunvericiliklə nəzərdə tutulan başaqa üsulla açıqlana bilər. Bu proses zamanı vəzifəli şəxslər ictimai vəzifələrin yerinə yetirilməsi zamanı yaradılmış və ya əldə olunmuş informasiyaları nəşrlər, elanlar, mətbuatla əlaqə yaradaraq və s. bu kimi texnologiyalardan istifadə edərək verməli olduqları məlumatları ictimayyətə çatdırırlar.

“Bələdiyyələrin maliyəsinin əsasları haqqında” Qanunun 10-cu maddəsinə görə, növbəti il üzrə büdcə layihəsi bələdiyyə iclasına təqdim edildiyi tarixdən 10 gün ərzində yerli əhalinin onunla tanış olması məqsədi ilə dərc edilməlidir. Qanunun 11-ci maddəsində isə yerli büdcənin icrası haqqında illik hesabatların əhaliyə çatdırılmasına toxunulur. Digər bir qanunda –“Yerli (bələdiyyə) vergilər və ödənişlər haqqında” Qanunun 12-ci maddəsində göstərilir ki, yerli vergilər və ödənişlərin yığılmasına, yerli büdcələrə köçürülməsinə və istifadə olunmasına nəzarət bələdiyyələrin müvafiq komissiyalarının, habelə seçkili orqanlarda, bələdiyyə qulluğunda işləməyən, yerli məhəllə komitələrinin və vətəndaşların yığıncaqlarında təklif olunan, bələdiyyə iclasında təsdiq olunan nəzarət komissiyaları tərəfindən həyata keçirilir.

Göründüyü kimi qanunvericilik tələb edir ki, bələdiyyələr yerli vergi və ödənişlərin yığılması və istifadə edilməsini tam aşkarlıq şəkilində reallaşdırmalıdırlar. Bunun üçün bələdiyyələr və onların nəzdində fəaliyyət göstərən komissiyalar daimi olaraq öz vətəndaşlarına hesabatlar verməli, məlumatları sakinlərin daha rahat və tez əldə etməsinə şərait yaratmalıdır. Bütün bunlara yanaşı, “Bələdiyyə torpaqlarının idarə olunması haqqında” Qanuna görə, bələdiyyələr ildə ən azı bir dəfə torpaqların dövriyyəsi ilə bağlı vətəndaşlara məlumat verməlidirlər.

Vətəndaş iştirakçılığını özündə təcəssüm etdirən daha bir qanun “Yerli rəy sorğusu haqqında” Azərbaycan Respublikası Qanunudur. Yerli rəy sorğusu - yerli əhəmiyyətli məsələlər barəsində bələdiyyə ərazisində yaşayan vətəndaşların rəyinin öyrənilməsidir. Azərbaycan Respublikası Konstitusiyası və qanunvericiliyi ilə bələdiyyələrin səlahiyyətinə aid edilmiş yerli əhəmiyyətli məsələlər yerli rəy sorğusuna çıxarıla bilər. Bu qanunda göstərilir ki, yerli rəy sorğusunu keçirmək təşəbbüsünü reallaşdırmaq üçün bələdiyyə ərazisində yaşayan azı 15 nəfərdən ibarət təşəbbüs qrupu yaradıla bilər, təşəbbüs qrupu yaradan vətəndaşalr yığıncaq keçib, yerli rəy sorğusunda qaldırılacaq məsələni irəli sürüb, səlahiyyətli nümayəndə təyin edib, təşəbbüs qrupunun qeydiyyata alınması barədə ərazi rəy sorğu komissiyasına müraciət edə bilər. Lakin Bələdiyyə ərazisində yaşayan vətəndaşlar yerli rəy sorğusunu keçirmək təşəbbüsü ilə o halda çıxış edə bilərlər ki, yerli rəy sorğusuna çıxarılan məsələnin lehinə müvafiq ərazidə yaşayan və səsvermə hüququna malik olan vətəndaşların azı 10 faizinin imzası toplansın.

Bununla birlikdə Azərbaycan Respublikası Konstitusiyası və qanunvericiliyi ilə bələdiyyələrin səlahiyyətinə aid edilməmiş məsələlər, bələdiyyənin rayon və şəhər inzibati ərazi tərkibindən çıxmaq, muxtariyyət elan etmək, bələdiyyələrin dövlət tərəfindən müəyyən edilmiş sərhədlərini dəyişdirmək, insan və vətəndaş hüquqlarını və azadlıqlarını məhdudlaşdırmaq, tarixi, mədəni abidələrə və qoruqlara ziyan vurmaq məqsədi güdən məsələlər yerli rəy sorğusuna çıxarıla bilməz.

Əhali və vətəndaş cəmiyyəti ilə münasibətləri sıxlaşdırmaq, eləcə də bələdiyyənin fəaliyyətlərini işıqlandırma üçün  bələdiyyələrdə ictimaiyyətlə əlaqələr sektorunu yaradılması və bu sektorun işlək mexanizm kimi fəaliyyət göstərməsi üçün konkret vəzifələr müəyyənləşdirməsi məqsədə uyğun hesab oluna bilər.

Yerli özünü idarəetmədə ictimai iştirakçılıq və hesabatlılıqla bağlı həm bələdiyyələrin, həm də vətəndaşların maarifləndirilməsi istiqamətində davamlı tədbirlər planının hazırlanması və bu planda KİV-lə, vətəndaş cəmiyyəti institutları ilə əməkdaşlıq edilməsi fayladı olardı. Mətbuatda xarici təcrübənin öyrənilməsi, ölkəmizdə yaxşı və işlək nümunələrin tətbiqi istiqamətində fəaliyyətlər barədə materiallar yerləşdirilsin.

### 2. Bələdiyyə büdcəsinə nəzarət, audit və monitorinq və büdcənin təhlili

Büdcə prosesinin sonuncu mərhələsini maliyyə ilinin sonunda bələdiyyə büdcəsinin icrası haqda hsabatın hazırlanması və ümumi yığıncaqda təsdiqi təşkil edir. İllik hesabat bələdiyyələrin nizamnaməsinə uyğun olaraq təsdiq olunur və bələdiyyə ərazisində yaşayan əhali də bu barədə məlumatlandırılır. Bu xüsus  qanunvericiliklə də tənzimlənmişdir. Bələdiyyələrin maliyyəsinin əsasları haqqında Azərbaycan Respublikasının Qanununa əsasən Bələdiyyələr öz nizamnaməsində müəyyən edilmiş qaydada yerli büdcənin icrası haqqında yarımillik və illik hesabatı bələdiyyə iclasına təqdim edir. Yarımillik maliyyə hesabatları hesabat dövründən sonrakı ayın 15-dək, illik maliyyə hesabatları növbəti ilin yanvarın 30-dək təqdim edilməlidir. Bələdiyyələr təqdim edilmiş maliyyə hesabatlarını bələdiyyə iclasının qərarı ilə 15 (on beş) gün müddətində təsdiq edirlər. Yerli əhalini tanış etmək məqsədilə bələdiyyələr illik hesabatı onlara elan, bülleten, vərəqə, yerli mətbuat, internet saytı və s. vasitələrlə çatdırırlar.

Bələdiyyər dövlət büdcəsindən alınmış məqsədli vəsaitlər istisna olmaqla, yerli büdcənin icrası prosesində mədaxil və məxaric maddələrində büdcə təsnifatı üzrə təsdiq edilmiş təxsisat həddində dəyişikliklər apara bilərlər. Yerli büdcələrin icrası zamanı qəbul edilmiş öhdəliklər üzrə əməliyyatlar büdcə ili qurtardıqda başa çatır və istifadə olunmayan vəsait bələdiyyələrin sərəncamında qalır.

Bələdiyyələrin yerli büdcənin icrsına, habelə xərclənmiş vəsaitin təsdiq olunmuş  büdcə gösdəricilərinə uyğunluğuna nəzarət etməklə yanaşı bu işə müstəqi auditorlarıda cəlb edə bilərlər. etmək hüququ vardır. Qanunvericilik və icra hakimiyyəti orqanları da öz növbəsində bələdiyyələrə həvalə etdikləri səlahiyyətlərin icrası üçün ayrılan maliyyə vəsaitlərinin aidiyyatı üzrə xərclənməsinə nəzarəti həyata keçirə bilərlər.

Hesablama Palatası da bələdiyyələrə inzibati nəzarəti həyata keçirən orqanın, başqa sözlə Bələdiyyələrlə İş Mərkəzinin sorğusu əsasında yerli büdcənin maliyyə-büdcə ekspertizasını keçirir, rəy hazırlayır, təkliflər verir və zərurət yarandıqda, audit yoxlamasını həyata keçirir.

Təsdiq olunmuş büdcənin müəyyən dövr üçün gəlirlər və xərclər üzrə proqnozlarının yerinə yetirilməsi vəziyyətinin qiymətləndiriməsiə büdcənin icrasının təhlili deyilir.

Büdcənin icra vəziyyətinin təhlli zamanı aşağıdakı istiqamətlər əsas götürülür:

- *Gəlirlərin həyata keçirilməsi vəziyyətinin ayrı ayrı mənbələr üzrə təhlili;*
- *Xərclər planının bütün maliyyələşdirmə istiqamətləri üzrə həyata keçirliməsinin təhlili;*
- *Büdcə öhdəliklərinin həyata keçirilməsinin təhlili;*
- *Büdcənin kassa icrasının təhlili və s.*

"Büdcə sistemi haqqında" qanuna əsasən də yerli büdcənin icrasına, o cümlədən sərf edilən vəsaitin təsdiq olunmuş büdcə göstəricilərinə uyğunluğuna bələdiyyə nəzarət edir. Bu məqsədlə də ildə bir dəfədən az olmayaraq müstəqil auditorları cəlb edirlər. Bu prosesin təşkili "Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarət haqqında" qanunda da öz əksini tapıb. Qanuna görə, Azərbaycan Respublikasının Hesablama Palatası bələdiyyələrin fəaliyyətinə inzibati nəzarət həyata keçirən orqanın sorğusu əsasında yerli büdcənin maliyyə-büdcə ekspertizasını keçirir, rəy hazırlayır, təkliflər verir və zərurət yarandıqda audit yoxlamasını həyata keçirir. Audit maliyyə-büdcə ekspertizası ilə əlaqədar milli audit standartlarına uyğun dövlət büdcə vəsaitləri və digər dövlət vəsaitləri ilə maliyyə əməliyyatlarının aparılmasının, dövlət büdcəsinin, büdcədənkənar dövlət fondlarının büdcələrinin icrasının, dövlət əmlakının idarə edilməsi və onun barəsində sərəncam verilməsinin qanunvericiliklə müəyyən edilən qaydalara, müddətlərə uyğun həyata keçirilməsini müəyyən etmək məqsədilə aparılan nəzarət metodudur. Bələdiyələrdə audit bələdiyyənin daxili nazarət xidməti tərəfindən, və yaxud da bələdiyyənin cəlb etdiyi müstəqil auditorlar vasitəsi ilə həyata keçirilə bilər. Daxili audit risklərin idarə olunması, nəzarət və idarəetmə proseslərinin qiymətləndirilməsi, səmərəliliyinin yüksəldilməsinə sistemli, ardıcıl yanaşmadan istifadə etməklə, qarşıya qoyulan məqsədlərə nail olmaqda bələdiyyələrə kömək edir. Daxili audit fəaliyyətinin müstəqil icra olunması və auditorların obyektivliyi qorumaları dolğun və faydalı nəticələrin alınması baxımından vacibdir.

Büdcə prosesinin başlıca məqamları və əsas istiqamətləri, büdcə planlaşdırılmasının xüsusiyyətləri, əsas tendensiyaları , strukturu, büdcə siyasətinin məqsəd və priorittləri, təşkili, bu prosesdə vətəndaşların mümkün qədər məlumatlandırılması bələdiyyə büdcəsinin formalaşması və büdcə prossesi təhlilinin məqsədini meyana gətirir. Göürülən işlərin nəticəsi olaraq büdcə hesabatı hazırlanır ki, bu da bələdiyyə büdcəsinin formalaşması və təhlili üzrə yerinə yetirilir. Bu hesabat həm qısa xülasə formasında həmdə geniş təfsilatlı şəkildə əks oluna bilər. İctimaiyyyətin bütün təbəqələrini, onları rahat anlayacağı formada məlumatlandırmaq, eləcə də və onların büdcə prosesində fəallığını artırmaq üçün hesabat xülasəsinin qısa variantda nəşri daha doğru addımdır. Lakin bələdiyyə rəhbərliyi və yerli qeyri

hökümət təşkilatlarının rəhbərlərini mlumatlandırmaq və büdcə prosesində fəallığın artırmaq üçün bu təhlilin geniş həcmdə dərc olunması şərtdir.

Təhlil əgər əvvəlki illərlə müqayisədə büdcənin tərtibi, müzakirəsi və təsdiqi mərhələlərinin nə qədər dolğun aparıldığını aşkar etmək üçün aparılırsa, aşağıdakı məlumatların yoxlanılması zəruridir:

- Normativ sənədlərdə gösdərilən müddətə uyğun olaraq büdcə prosesi mərhələləri ilə bağlı işlərin yerinə yetirilməsinə riyaət olunubmu;
- Büdcə prosesi üçün nəzərdə tutulan müddətlərdə yayınma halları olubmu, olubsa səbəbləri və qarşısının alınması üçün görülən tədbirlər nədən ibarət olub.
- Büdcə və icrası ilə əlaqədar olan hesabatın təsdiqi müddətinə riayət olunubmu, olunmayıbsa səbəb və nəticələri;
- Büdcə layihəsinin ictimaiyyətə təqdim olunma formaları necə olub;
- Dərc olunmuş materialların əhalinin bütün təbəqələri üçün, o cümlədən ictimai təşkilatlar üçün əlçatan olubmu
- Təqdim edilən sənədlər əhalinin, eləcə də vətəndaş cəmiyyəti üzvlərinin bələdiyyəyə, bələdiyyə büdcəsinə inamını artırıbmı

Bu mərhələdə adətən ekspertlərə əvvəlki ilin məlumatları əsasında büdcə işrlərinin dəqiqliyi, dolğunluğu haqda nəticələr formalaşdırırlar.

Təhlil büdcənin şəffaflığının ölçülməsinə istiqamətlənəcəksə, bu zaman aşağıdakı suallara cavab tapılmalıdır.

- Büdcə şəffaflığına maraq gösdərən vətəndaş cəmiyyəti institutlarının bələdiyyə ərazisində inkişafı hansı sıviyyədədədir
- Büdcə lahiyyəsi ilə əlaqədar olaraq ictimai dinləmə təşkil olunubmu
- İctimai iştirak büdcə siyasətlərinin istiqamətlərinin formalaşdırılmasında hansı səviyyədə töhfə verir
- Büdcənin ayrı ayrı maddələri üzrə düzəlişlərin və təkliflərin işlənməsində vətəndaşları hansı dərəcədə iştirak edib
- Büdcənin qəbulu və realladırılması mərhələləri yerli mətbuat və ya mediada nə dərəcədə işıqllandırılıb.

Ən mühüm təhlil isə büdcənin real gösdəricilərinin, xərclərin dinamikasının və sturktur təhlillinin nəticələrinin qarşılaşdırılması və nəticədə büdcə siyasətinin prioritetlərinə çatmaq dərəcəsinin qiymətləndirilməsinə də istiqamətlənə bilər. Bu təhlili apararkən aşağıdakı məlumatların yığılması vacibdir:

- Vergi mənbələri üzrə əldə olunan gəlirlərin miqdarı;
- Qeyri – vergi mənbələri üzrə əldə olunan gəlirlərin miqdarı;
- Bələdiyyə əmlakı və istifadəsindən əldə olunan gəlirlərin miqdarı;
- Əvvəlki illərdə büdcə gəlirləri və xərcləri sahəsində mövcud olan vacib problemləri və budcə gəlir və xərclərinin icra vəziyyətinin səviyyəsi (%-lə);
- Büdcənin gəlirlər hissəsinin ümumi strukturu və yerli vergilərin nisbəti;
- Büdcə siyasəti istiqamətlərinin büdcə xərclərinin real sturkturu ilə əlaqələndirilməsi dərəcəsi (əvvəlki dövrlə müqayisədə hansı dəyişiklikərin baş verib verməməsi)
- büdcə xərclərinin quruluşu, onun əsaslandırılması və büdcə siyasəti istiqamətlərinə uyğunluğu;
- cari xərclərdə kompensasiya və güzəştlərin payı eləcədə büdcənin sosial yönümlülk səviyyəsi
- Büdcənin reallaşdırılmasının nəticəsi olaraq əhaliyə verilən ictimai xidmətlərin dəyişmə keyfiyyəti, eləcədə yerli büdcənin xərclərinin bələdiyyə təsərrüfatının idarə edilməsi siyasətində hansı dərəcədə əks olunması

### 3. Bələdiyyə büdcələrində şəffaflığın təmini yolları

Bir qayda olaraq bələdiyyələr büdcə vəsaitlərini ən vacib problemlərin həlli istiqamətdinə yönəltməlidirlər. Buna görədə büdcə tərtib olunarkən ilk növbədə ən vacib problemlər, onların həlli istiqamətləri, bu məqsədlərə büdcədən ayrılacaq maliyyə vəsaitlərinin həcmi və strukturunun müəyyənləşdirilməsi, eləcə də büdcəinin təsdiq olunması və büdcənin icrasına ictimai nəzarətin təmin olunması məqsədi ilə bələdiyyə ərazisində yaşayan əhali proseslərə fəal cəlb olunmalıdır. Bununlada bələdiyyə büdcə vəsaitinin xərclənməsinin şəffaflığına və səmərəliliyinə, son nəticədə isə bələdiyyənin bir çox problemlərinin həllinə nail olmaq olar.

Bələdiyyə büdcəsinin şəffaflığı dedikdə aşağıdakılar nəzərdə tutulur.

- Bələdiyyə ərazisində yaşayan hər kəsin yerli büdcə prosesində iştirakına həmdə ödədiyi vergilərin necə xərclədniyini görməyə şərait yaradır.
- Büdcə barəsində əhalinin məlumat almaq hüququnu təmin edir.
- Bələdiyyənin bütün üzvlərinin büdcə üzrə son qərarların qəbuluna təsirinə imkan verir
- Bələdiyyə rəhbər və məmurlarının büdcənin işlənib hazırlanması və reallaşdırılması prosesində məsuliyyətini artırır.
- Büdcə vəsaitlərinin təyinatı üzrə xərclənməsinə nəzarət imkan yaradır ki, bununla da korrupsiya və mənimsəmə hallarının qarşısını alır.
- Yerli idarətmə qurumlarına qarşı bələdiyyə ərazisində yaşayan əhali tərəfindən inamı artırır
- Bələdiyyənin şəffaflığı beynəlxalq qurumlar və təşkilatlar üçün təmin edir.
- Bələdiyyələrin işinin səmərərliliyin artırır və .s

Əhali istənilən formada yerli büdcə prosesinin bütün mərhələlərində iştirak edə bilməlidir. Belə ki, Bələdiyyə büdcəsinin yeni layihəsi təsdiqə təqdim edilməzdən bir ay əvvəl bələdiyyə tərəfindən ictimaiyyətə açıqlanmalıdır. Bunun üçün bələdiyyələr “Vətəndaşın büdcə bələdçisi”ni hazırlaya bilər və burada konkret proqramlar üzrə informasiyaları daha da sadələşdirilmiş formada yerləşdirə bilər. “Vətəndaşın büdcə bələdçisi”nin yayılması və çapı üçün hər hansı məhdudiyyət qoyulmamalıdır. Bələdiyyə büdcə layihələrinin, aralıq büdcə hesabatlarının və icra olunmuş büdcə üzrə hesabatların məzmunu, strukturu və əhatəliliyi daha da zənginləşdirilməli və bütün göstəricilər detallı şəkildə açıqlanmalıdır. Misal üçün artıq bir neçə ildir ki, əhalinin büdcə ilə bağlı maarifləndirilməsi, dövlət büdcə siyasətinin daha sadə dildə əhaliyə çatdırılması məqsədi ilə Maliyyə Nazirliyi “Vətəndaşın büdcə bələdçisi”ni hazırlayır. Sənəddə dövlət büdcəsinin gəlir və xərc istiqamətləri barədə geniş və izahlı məlumat verilir. Nümunə üçün 2015 –ci il üçün dövlət və icmal büdcələrini özündə birləşdirən “Vətəndaşın büdcə bələdçisi” kitabı ilə tanış olmaq mükündür. (http://www.maliyye.gov.az/sites/default/files/Binder.pdf). Bələdiyyələr də bu mövcud təcrübəyə əsaslanaraq yerli büdcə haqqında ətraflı məlumatların yer aldığı büdcə bələdçisini hazırlaya bilərlər.

Digər tərəfdən bələdiyyələr büdcənin icrası ilə bağlı aylıq hesabatları müntəzəm olaraq öz internet səhifəsində (internet səhifəsi yoxdursa elan lövhələrində) yerləşdirməli və bu hesabatlarda gəlirlərin və xərclərin tam təsnifatı əhatə olunmalıdır. Yaxşı olardı ki, bələdiyyələr vətəndaşlardan

büdcənin istifadəsi ilə bağlı daxil olan müraciətlərin, təkliflərin, sorğuların və şikayətlərin araşdırılması mexanizmlərini işləyib hazırlasınlar.

Bələdiyyələrin internet səhifəsinin xüsusi bölməsində büdcə layihəsi ilə birlikdə, ictimai dinləmələrin qrafiki və keçiriləcəyi yer və ictimai müzakirənin müddəti, keçirilməsi qaydaları, rəy, irad və təkliflərin təqdim olunması qaydası, onlara baxılması və nəticələrin açıqlanacağı müddətlər barədə məlumatı yerləşdirilməsi mükündür. Büdcə layihəsinə dair təqdim olunmuş rəy, irad və təkliflərin nəzərə alınmasının nəticələri üzrə ictimaiyyətin məlumatlandırılması da mühümdür. Bir sözlə bələdiyyə büdcələrinin layihələrinin hazırlanmasında yerli ehtiyacların ödənməsi mərhələsindən büdcənin kassa icrasına qədər bütün mərhələlərdə vətəndaş cəmiyyəti təşkilatları dinləmələr, forumlar və ya yazılı məsləhətləşmələr formasında iştirak edə bilməlidirlər.

Vətəndaşlara büdcə məlumatları haqda informasiya verilməsi üçün :

- *Həmin sənədlərlə əlaqədar olaraq bələdiyyə idarələrində tanışlıq şəraiti yaradılmalıdır.*
- *Şəhər, kənd və ya qəsəbə kitabxanalarında büdcə sənədləri yerləşdiriə bilər*
- *Bələdiyyənin özünün mətbuat orqanı (varsa) və ya bələdiyyələrin ərazisində fəaliyyət gösdərən mətbuat orqanı, eləcə də sosial media səhifələrində və ya elektron bazada belə informasiyalar dərc oluna bilər.*
- *Belə mətbuat orqanları olmadıqda isə bələdiyyənin ərazisində bir neçə yerdə büdcə stenderi təşkil oluna bilər.*
- *Bələdiyyə ərazsində KİV fəaliyyət gösdərirsə bucür şəraitdəndə yararlanmaq* olar

Bələdiyyə ərazisində yaşayan əhalinin büdcə ilə bağlı təşəbbüslərini öyrənmək üçün büdcənin hazırlanması zamanı aşağdakıları həyata keçirmək olar.

- *Elektron poçt yaradılmaqla vətəndaş təşəbbüsləri öyrənilə bilər.*
- *Facebook, Twitter və s. sosial media vasitələrində səhifələr açaraq vətəndaşlara mütəmadi fikir mübadiləsi üçün şərait yaradıla bilər.*
- *İnternet çıxışının məhdud olduğu və ya istifadəçilərinin az olduğu bələdiyyələrdə ənənvi poçt qutularından istifadə etməklə vətəndaşların rəy, şikayət və təkliflərini bildirmələrinə imkan yaradıla bilər.*

- *Əhali arasında sorğular təşkil oluna bilər. Bu bir-başa ola biləcəyi kimi, internet imkanlarından istifadə edən bələdiyyələrdə online rejimdə də ola bilər;*
- *Bələdiyyənin ictimai xarakter daşıyan ən vacib problemlərinin müəyyən edilməsi üçün əhali arasında diskusyalar (məsələn dəyirmi masalar , ümumi yığıncaqlar və s.) həyata keçirilə bilər, eləcədə müxtəlif sosial quruplarla (ağsaqqallar, müəllimlər, gənclər, qadınlar və s.) məsləhətləşmələr aparmaq üçün görüşlər təşkil oluna bilər.*
- *Müxtəlif peşə sahiblərinin (müəllim, mühəndis, həkim, universitetlərdən nümayəndələr, maliyyə mütəxəssisləri), eləcə də ərazidə tanınmış ziyalıların iştirakı ilə bir məsləhət heyəti qurularaq ərazinin sosial-ictimai məsələlərinin müzakirəsi üçün mütəmadi (rübdə bir dəfə) iclaslar keçirilə bilər;*
- *Əgər bələdiyyə ərazisində fəaliyyət gösdərən icma və ictimai təşkilatlar, qeyri-hökümət təşkilatları, içtimai birliklər və s. varsa onlar da diskusyalara cəlb oluna bilər və.s*
- *Telefon çağrı mərkəzlərinin və ya qaynar xəttlərin yaradılması;*
- *Bələdiyyə büdcəsi diskusyası ilə əlaqədar olaraq ictimai dinləmələrin təşkil edilməsi.*

Yerli özünüidarətmə qərarlarının qəbulu zamanı cəmiyyətin müxtəlif təbəqlərinin mövqeyinin öyrənilməsi, lazımı olan məsələlərin müzakirəsi üçün yerli idarəetmə orqan nümayəndələrinin, əhalinin ayrı ayrı sosial quruplarının habelə ictimai təşkilatların, mətbuat nümayəndələrinin eləcədə digər maraqlı tərəflərin iştirakı ilə yaradılan vətəndaş yığıncağı ictimai dinləməni meydana gətirir. Yuxarıda sadalanan müxtəlif formatlı ictimai iştirak üsulları idarətmə qərarlarının qəbulunda demokratiklyin əsas əlaməti olmaqla yanaşı, cəmiyyətdə demokratiya mədəniyyətinin inkişafına da müsbət təsir göstərir.

Bələdiyyələrdə hesabatlılığı və şəffaflığı artıran mühüm iştirak üsullarından biri də Məhəllə Komitələridir:

Bələdiyyələrin statusu haqqında" Azərbaycan Respublikası Qanununun 31-ci maddəsinə müvafiq olaraq, bələdiyyələrin məhəllə komitələri bələdiyyələrin səlahiyyətlərinə aid məsələlərin həllində onlara kömək məqsədi ilə vətəndaşların yaşayış yeri üzrə öz təşəbbüsü ilə yaratdıqları könüllü birliklərdir.

Məhəllə komitələri ərazi prinsipi üzrə yaradılır və onun fəaliyyət göstərdiyi ərazi ayrıca bir və ya bir neçə evin (məhəllənin) hüdudları ilə müəyyən edilir. Məhəllə komitəsi, həmin komitənin fəaliyyət göstərdiyi ərazidə yaşayan əhalinin yığıncağında 5-11 üzvdən ibarət tərkibdə açıq səsvermə yolu ilə 2 illik müddətə seçilir. Yığıncaq komitənin fəaliyyət göstərdiyi ərazidə yaşayan və səsvermə hüququ olan vətəndaşların azı 15 faizi iştirak etdikdə səlahiyyətlidir. Həmin yığıncaqda məhəllə komitəsinin sədri, sədr müavini və katibi seçilir. Məhəllə komitəsinin tərkibinə həmin ərazidə yaşayan, yaşı 18-dən aşağı olmayan vətəndaşlar seçilirlər. Vətəndaşların yığıncağında iştirak edənlərin səslərinin yarısından çoxunu toplamış şəxslər bu komitənin tərkibinə seçilmiş hesab olunurlar.

Məhəllə komitəsi vətəndaşların yığıncağının qərarı ilə vaxtından əvvəl tamamilə və ya qismən yenidən seçilə bilər. Vətəndaşların yığıncaqlar məhəllə komitəsinin fəaliyyət göstərdiyi ərazidə yaşayan səsvermə hüququ olan şəxslərin azı 10 faizinin və ya məhəllə komitəsi üzvlərinin üçdə bir hissəsinin təşəbbüsü ilə çağırılır. Məhəllə komitəsi görüləcək tədbirlərin siyahısını və növbəliyini müəyyən edir və görülmüş işlərin uçotunu aparır. Məhəllə komitəsi iki ayda bir dəfədən az olmamaq şərti ilə istənilən vaxt çağırıla bilər. Lakin qərarların qəbulu üşçün komitə üzvlərindən yarısından çoxunun iştirakı tələb olunur. Məhəllə komitəsinin iclasları açıq keçirilir və açıq səsvermə vasitəsilə və adi səs çoxluğu ilə qərarlar qəbul olunur.

Məhəllə komitəsi öz fəaliyyəti barədə altı ayda bir dəfə vətəndaşların yığıncağında hesabat verir. Yığıncağın keçirilməsi haqqında müvafiq məhəllə komitəsinin fəaliyyət göstərdiyi ərazidə yaşayan şəxslərə bir həftə qabaq məlumat verilməlidir.

## ƏDƏBİYYAT


1. Bələdiyyələrin statusu haqqında Azərbaycan Respublikasının Qanunu
2. Bələdiyyələrin maliyyəsinin əsasları haqqında Azərbaycan respublikasının qanunu
3. Azərbaycan Respublikasının Vergi Məcəlləsi
4. Büdcə Sistemi Haqqında Azərbaycan Respublikasının qanunu
5. İnformasiya əldə etmək haqqında Azərbaycan Respublikasının Qanunu
6. Bələdiyyələrin Məhəllə Komitələri haqqında Nümunəvi Əsasnamə
7. Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarət haqqında Azərbaycan Respublikasının Qanunu
8. Yerli rəy sorğusu haqqında Azərbaycan Respublikası Qanunu
9. Bələdiyyələrin daimi və başqa komissiyalari haqqında Əsasnamə
10. Mehtiyev A., "Bələdiyyə büdcəsini necə təhlil etməli" , Ekpert jurnalı, Bakı 2004
11. Local Finance, Municipal Local Revenues, World Bank Institue, 2015
12. Brzeski, W. Jan."Global Position Paper on Property Tax Reforms." International Property Tax Institute, Toronto, Canada 2012
13. "Subnational Taxation in Developing Countries: A Review of the Literature." Policy Research Working Paper 5450, World Bank, Washington, DC, 2011
14. Özen A., Güray İ, Katılımcı Demokrasi Anlayışında Bütçeleme: Katılımcı Bütçeleme, Maliye Dergisi y Sayı 156 y Ocak-Haziran 2009
15. İyi Yönetişim İçin Örnek Bir Model: Katılımcı Bütçeleme, Türkiye Ekonomi Politikalari Araştırma Vakfı, Yönetişim Etütleri Programı Mart 2007
16. http://www.taxes.gov.az/uploads/2015/download/emlak.pdf
17. http://www.taxes.gov.az/uploads/2015/download/torpaq.pdf
18. http://library.adau.edu.az/upload/book/594_prof_hesen_hesenov_budce_sistemi_2013%20%2815%29.pdf
19. http://www.stat.gov.az/menu/4/e-reports/calendar/01_yan.php